28 avqust 2024 №63 (2128)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Laçınlı günlərin əzəmət və təntənəsi

### Laçın Şəhəri Günü ikinci dəfə qeyd olundu – dosta sevinc, düşmənə gözdağı

Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı və "Bakı Abadlıq Xidməti" MMC-nin dəstəyi ilə 26 avqust – Laçın Şəhəri Günü ikinci dəfə təntənə ilə qeyd olundu.



Tədbirdə doğma yurda qayıdan laçınlılarla yanaşı, rəsmilər, mədəniyyət xadimləri və digər qonaqlar iştirak edirdilər.

Şəhər günü Laçının dörd məkanında – Bayraq meydanı, "Lacinema" kinoteatrı, seyrəngah və Həkəri çayının sahilində gerçəkləşdi.

Bayraq meydanında təşkil edilən açılış mərasimində əvvəlcə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni səsləndirildi.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov növbəti Laçın Şəhəri Günü münasibətilə sakinləri və tədbir iştirakçılarını təbrik etdi. Qeyd olundu ki, bu gün Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il tarixli sərəncamı ilə təqvimimizə daxil edilib. "Otuzillik işğal dövründə düşmən Laçın şəhərini xarabalığa çevirmişdi. Laçının azad olunmasından qısa dövr ərzində burada genişmiqyaslı bərpa-quruculuq işləri aparılıb. Hazırda Laçın şəhərinin əvvəlki əzəməti bərpa edilir", – deyə M.Məmmədov bildirdi.






Digər çıxış edənlər Laçının füsunkar təbiətindən söz açdı, bayram münasibətilə şəhər sakinlərinə xoş arzularını çatdırdılar.

Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestri tərəfindən vətənpərvərlik ruhlu musiqilər ifa edildi. Daha sonra hərbi orkestrin müşayiəti ilə tədbir iştirakçılarının "Lacinema" kinoteatrına yürüşü oldu.

**Sərgilər, film nümayişləri**

"Lacinema" kinoteatrında "Laçınım mənim" adlı rəsm sərgisi və "Zamanın qanadlarında. Laçın" fotosərgisi nümayiş olundu.

Günorta saatlarında qonaqlar "Şuşa, sən azadsan!" sənədli filmini izlədilər. Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və "Salnaməfilm" studiyasının birgə istehsal etdiyi filmin rejissoru Cavidan Şərifov, prodüserləri Nazim Hüseynov və Orman Əliyevdir.

Müasir hərb tarixinin ən parlaq səhifələrindən biri olan Şuşa əməliyyatının diqqətçəkən məqamları izləyicilərə ilk dəfə bu filmdə təqdim edilir. Filmdə Şuşa əməliyyatını həyata keçirən cəsur əsgər və zabitlərimizin müsahibələri, Şuşanın işğaldan azad edilməsində əvəzsiz rol oynayan Xüsusi Təyinatlı Qüvvələrin keçdiyi döyüş yolu, əməliyyat zamanı çəkilmiş eksklüziv kadrlar yer alıb.

Günün ikinci yarısında isə kinoteatrda "Oğurlanmış bahar", "Tıq-tıq və dostları möcüzələr axtarışında" və "Mənim balaca şahzadəm" animasiya filmləri nümayiş etdirildi.

Mədəniyyət Nazirliyinin sifarişi ilə istehsal olunan "Oğurlanmış Bahar" filminin quruluşçu rejissoru Aleksandra Şirinova, bəstəkarı Azər Hacıəsgərli, prodüseri Mansur Şəfiyevdir. Filmdə Bahar qızı Div tərəfindən oğurlanır. Balaca qəhrəmanla Bahar birləşib Divin qəsrindən qaçırlar. Bundan sonra Bahar hər tərəfi gül-çiçəyə qərq edir...

"Tıq-tıq və dostları möcüzələr axtarışında" ikihissəli animasiya filmi də Mədəniyyət Nazirliyinin sifarişi ilə ərsəyə gəlib. Filmin qəhrəmanları bölgələrimizə səyahət edirlər, başlarına qeyri-adi hadisələr də gəlir. Filmdə maarifləndirici məlumatlar da diqqətə çatdırılır. Ssenari müəllifi və quruluşçu rejissoru Sultan Abbasbəyli, bəstəkarı Azər Hacıəsgərli, rəssamı Kübra Binnətova, redaktoru Yusif Şeyxov, səs rejissoru Mehman Nadirov, prodüseri Mansur Şəfiyevdir.

"Mənim balaca şahzadəm" animasiya filmində rəssam Məryəm Ələkbərlinin fransız yazıçı Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə" əsərinə həsr etdiyi tabloların təsviri animasiya hissələrinin tərkibində verilib. Filmin quruluşçu rejissoru Arif Məhərrəmov, bədii rəhbəri Xalq yazıçısı Elçin, ssenari müəllifi İman İsmayıl, quruluşçu rəssamı Amil Quliyev, bəstəkarı Azər Hacıəsgərli, səsləndirmə üzrə rejissoru Mehriban Zəki, prodüseri Müşfiq Hətəmovdur. "Mənim balaca Şahzadəm" Türkiyə, Banqladeş, Pakistan və Cənubi Koreyada festivallarda nümayiş olunub.

davamı səh. 2-də

## Qardaş ölkələr, müttəfiqlər kimi çiyin-çiyinə addımlayırıq



Özbəkistanın kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciət edirəm: siz bu barədə daha çox, daha ucadan danışmalı və onu əhalimizə çatdırmalısınız. Fikrimcə, sizin azərbaycanlı həmkarlarınız da çatdıracaq, çünki xalqlar bunu gözləyirlər. Zənnimcə, bu, müttəfiqlik münasibətləri haqqında çoxdan gözlənilən ən vacib müqavilədir.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bu sözləri avqustun 23-də Daşkənddə imzalanan "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin əhəmiyyətindən bəhs edərkən deyib.

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 22-23 avqust tarixlərində Özbəkistan Respublikasına dövlət səfəri edib. Səfərin ikinci günü dövlət başçılarının məhdud görüşündən və Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şurasının birinci iclasından sonra ikitərəfli sənədlərin imzalanması mərasimi olub.

Sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

davamı səh. 2-də

## Parlament seçkilərinə dörd gün qaldı

Sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri ilə əlaqədar bülletenlərin dairə seçki komissiyalarına paylanılması avqustun 26-da başa çatıb.

Mərkəzi Seçki Komissiyasından (MSK) bildirilib ki, seçki bülletenləri səsvermə gününə azı 3 gün qalmışadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına təhvil veriləcək.

Qeyd edək ki, MSK-nın müvafiq qərarı ilə ümumilikdə 6 milyon 516 min 567 seçki bülleteni çap olunub.

Milli Məclisə seçkilərdə namizədlərin sayı isə 990-a düşüb. Xatırladaq ki, 125 dairə üzrə seçkilərdə iştirak etmək üçün 1052 namizəd qeydə alınmışdı. Bir sıra dairələr üzrə ümumilikdə 61 nəfər namizədliyini geri götürüb. Bir nəfər namizəd dünyasını dəyişib.

Milli Məclisə növbədənkənar seçkilərlə bağlı işğaldan azad olunmuş ərazilərdə 54 seçki məntəqəsi fəaliyyət göstərir. Bu məntəqələrdə 42 mindən çox seçici səs verə bilər.

Seçkiləri müşahidə etmək üçün 50 beynəlxalq qurumdan və 69 ölkədən 604 nəfər akkreditə olunub. O cümlədən ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosundan 227 nəfər, ATƏT PA-dan 61, MDB Parlamentlərarası Assambleyasından 34, Müstəqil Dövlətlər Birliyindən 93, Türk Dövlətləri Parlament Assambleyasından (TÜRKPA) 16 nəfər akkreditə olunub.

Akkreditasiyadan keçən yerli müşahidəçi sayı isə 111 mindən çoxdur. O cümlədən 25 siyasi partiyanın 65 minə yaxın müşahidəçisi qeydə alınıb.

## "Azərbaycanı ziyarət et"

### "Diplomatic World Sweden" ölkəmizin görməli yerləri haqqında




Diplomatların, siyasətçilərin, həmçinin İsveçdə akkreditə olunmuş diplomatik korpusun əməkdaşlarının əsas auditoriyası olan "Diplomatic World Sweden" portalında Azərbaycanın görməli yerlərindən bəhs edilən məqalə dərc olunub.

"Azərbaycanı ziyarət et" sərlövhəli məqalənin müəllifi oxuculara qədim memarlıq və müasir şəhərsalmanın füsunkar vəhdəti kimi təqdim etdiyi Odlar Yurduna səyahətə yollanmağı tövsiyə edir.

Məqalədə İçərişəhər, Abşeron Milli Parkı, Qarasu vulkanı, Naftalan kurortu, Qobustan kimi görməli yerlər, eləcə də Azərbaycanın mənzərəli subtropik dəniz kurortları barədə müfəssəl məlumat verilir.

Müəllif sonda yazır: "Avropa və Asiyanın qovşağında yerləşən Azərbaycanın səyahətçilərə təklif edəcəyi çoxlu sayda görməli yer var. Ziyarət etməyə dəyər!".

## Operatorluq və heykəltaraşlıq üzrə dövlət sifarişli yerlər niyə boş qalır?



Məlum olduğu kimi, Dövlət İmtahan Mərkəzi (DİM) avqustun 22-də 2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələrini elan edib.

DİM-in idarə heyətinin sədri Məleykə Abbaszadə avqustun 26-da bununla bağlı mətbuat konfransı keçirib.

M.Abbaszadə diqqətə çatdırıb ki, ali təhsil müəssisələrinin qəbul planı 95,27% dolub. Müsabiqənin nəticələrinə əsasən, 55 656 nəfər (o cümlədən 7287 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 27 117 (o cümlədən 1579 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 28 539 (o cümlədən 5708 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

Qeyd olunan rəqəmləri ötən ilin müvafiq məlumatları (I mərhələdən sonra qəbulun nəticələri) ilə müqayisə etsək, bu il tələbə adını qazananların sayının daha da artmasını müşahidə edə bilərik. Ötən ilə nisbətən bu il tələbə olanların sayı 3715 nəfər daha çoxdur. Bu il həmçinin dövlət sifarişi əsasında qəbul olunanların sayı da ötənilki göstəricidən 2523 nəfər çoxdur. Ümumiyyətlə, son illər qəbul planında dövlət sifarişli yerlərin sayının artırılması nəticəsində ödənişsiz oxumaq imkanı əldə edən tələbələrin sayı çoxalmaqda davam edir.

davamı səh. 3-də

## Prioritet ixtisaslara ödənişsiz qəbul aparılacaq

### Musiqi və incəsənət məktəblərinə şagird qəbulu 10 min nəfərə çatıb

Mədəniyyət Nazirliyi sistemində fəaliyyət göstərən musiqi, incəsənət məktəb və mərkəzlərinə 2024/2025-ci tədris ili üçün qəbul imtahanlarında uğur qazanan şagirdlərin sayı 10 min nəfərə çatıb. Qəbul olunan şagirdlərin qeydiyyatının müddəti 31 avqust tarixinədək uzadılıb.

Simfonik orkestr alətləri, eləcə də bir sıra milli musiqi alətləri üzrə ifaçılara yüksək tələbat nəzərə alınaraq həmin ixtisaslara marağın artırılması məqsədilə qəbul imtahanlarında 50 və daha yuxarı bal toplayan şagirdlər ödənişsiz əsaslarla violonçel, kontrabas, arfa, fleyta, qoboy, klarnet, faqot, saksofon, truba, trombon, valtorna, saz, balaban, qanun və zərb alətləri ixtisasları üzrə əlavə yerləşdirmədə iştirak edə bilərlər.

Qeyd edək ki, bu ixtisaslar üzrə əlavə yerləşdirmədə iştirak etmək istəyən şagirdlər my.culture.az şəxsi kabineti vasitəsilə qeydiyyatdan keçə biləcəklər. Bununla bağlı yaxın günlərdə əlavə məlumat veriləcək.

Daşkəsəndə növbəti yaylaq şöləni



səh. 4

Qədim sənətin müasir məkanı



səh. 5

Səmərqənddə 13-cü "Şərq tərənələri"



səh. 8

# Qardaş ölkələr, müttəfiqlər kimi çiyin-çiyinə addımlayırıq



*əvvəli səh. 1-də*

### Prezident Şavkat Mirziyoyevin bəyanatından

Bu gün hörmətli İlham Heydər oğlu ilə müttəfiqlik münasibətləri haqqında müqavilə imzaladıq. Bu sənəd dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni fəslin başlanması ilə əlamətdardır. Biz bununla çoxplanlı tərəfdaşlığın hərtərəfli inkişafı kursuna möhkəm sadiqliyimizi təsdiq etdik.

Sizin qarşınızda bir daha demək istəyirəm, bu gün biz tarix yazdıq. Bu tarix iki yaxın xalqın – Azərbaycan və Özbəkistan xalqlarının rifahında öz əksini tapacaq.

Biz, həmçinin müttəfiqlik münasibətlərimizin dərinləşməsi üzrə yeni təkliflərin hazırlanması və həyata keçirilməsinin səmərəli mexanizmi olan Ali Dövlətlərarası Şuranın birinci iclasını keçirdik. Azərbaycandakı birinci görüşümüzdə əməkdaşlığın on istiqaməti müəyyən edildi. Bizim real nəticələrimiz var. Bu gün 20 yeni istiqamət götürmək üzrə razılıq əldə etmişik, bu, əməkdaşlığımızın real istiqamətləridir.

Biz Özbəkistanda qardaş Azərbaycanın böyük uğurlarına və nailiyyətlərinə ürəkdən sevinirik. Qədim Qarabağ torpağı inkişaf və tərəqqi diyarına çevrilir. Mən özüm Füzulidə, Şuşada olarkən tikilmiş infrastrukturu, tunelləri, körpüləri gördüm. Evlər, məktəblər, xəstəxanalar inşa edilir. Yəni, demək istəyirəm ki, insanların rahatlığı və xoşbəxt həyatı üçün hər şey edilir. Onlar bu günü illərlə, on illərlə gözləyiblər, – biz İlham Heydər oğlu ilə onlarla görüşərkən, mən bu sakinlərin gözlərində evlərinə qayıtmağın sevincini gördüm. Məhdud tərkibdə görüşdə razılığa gəldik ki, bu gün irimiqyaslı quruculuq işlərinin getdiyi Qarabağda əgər özbək inşaatçıları üçün də hər hansı sahə və ya rayon ayrılarsa, biz də çiçəklənən yeni Qarabağın inşaat işlərində iştirak edərik.

Azərbaycan bizim mühüm strateji tərəfdaşımız və bu gündən etibarən artıq həm də müttəfiqimizdir. Bizi ortaq tarixi köklər, çoxəsrlik dostluq birləşdirir, biz bir dinə və oxşar mədəniyyətə, ənənələrə malikik. Bütün bunlar hərtərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün möhkəm zəmindir.

Razılığa gəldik ki, növbəti ili "Özbəkistan-Azərbaycan iqtisadi kooperasiyası ili" elan edək. Bu ərəfədə biznes-forum məhsuldar şəkildə keçirildi, onlarla müqavilə və saziş imzalandı. Bu gün bizim biznes nümayəndələri ilə ayrıca görüşümüz (Prezidentlərin iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü avqustun 23-də keçirilib – red.) olacaq. Birlikdə mühüm layihələrə start verəcəyik – bu, mehmanxanaların, tekstil klasterlərinin, tikiş fabriklərinin tikintisi, inşaat materiallarının istehsalı və digərləridir.

Biz, həmçinin nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi, o cümlədən Trans-Xəzər dəhlizinin inkişafı vasitəsilə birgə səyləri davam etdirəcəyik. May ayında Quba şəhərində regionların forumu uğurla keçirildi. Növbəti forumun gələn il Kokand şəhərində keçirilməsi, paytaxtlarda turistik komplekslərin yaradılması qərara alındı.

### "Qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi xoş ənənəyə çevrilib"

Mədəniyyət, gənclər, informasiya siyasəti, elm, təhsil və idman sahələrində fəal mübadiləni davam etdirəcəyik. Hər il ölkələrimizdə qarşılıqlı mədəniyyət və kino günlərinin, sərgilərin, yaradıcı kollektivlərin qastrollarının keçirilməsi xoş ənənəyə çevrilib. Belə tədbirlərin tez-tez bizim əhalinin böyük hissəsinin yaşadığı regionlarda keçirilməsi çox vacibdir. Bu gün, həmçinin bizim əfsanəvi ulduzlarımız Fərrux Zakirov və Polad Bülbüloğlunun çıxış edəcəkləri birgə konsert olacaq. Onların geniş şəkildə tanınması və yüksək qiymətlərinin əlaməti olaraq biz hörmətli İlham Heydər oğlu ilə bu yaxınlarda onlara Xalq artistləri fəxri adının verilməsinə dair qərar qəbul etdik.

Ümumiyyətlə demək istəyirəm ki, etimada əsaslanan danışıqların nəticəsindən çox məmnunam, çünki bu gün də, dünən də bir çox beynəlxalq, regional, ikitərəfli məsələləri çox ciddi müzakirə etdik. Demək istəyirəm ki, bizim mövqelərimiz üst-üstə düşür. Bütün məsələlər üzrə razılığa gəldik. Bizim mövqelərimiz eynilə ondan ibarətdir ki, bütün platformalarda əməkdaşlıq edəcəyik, qarşılıqlı münasibətlərimizi birlikdə inkişaf etdirəcəyik.

### Prezident İlham Əliyevin bəyanatından

Müxtəlif dövrlərdə, xüsusən son illərdə Özbəkistana dəfələrlə səfər etmişəm. Bu gün Özbəkistan təkcə regionda deyil, həm də dünya miqyasında sanballı siyasi nüfuza malik ölkəyə çevrilib. Biz buna səmimi-qəlbdən sevinirik.

Bu, mənim son iki ildə beşinci səfərimdir. Şavkat Miromonoviç isə son il yarımda dörd dəfə Azərbaycanda olub. Əgər buna noyabrda COP konfransında görüşməyimizi də əlavə etsək, onda hesabı bərabərləşdiririk. Bu ən yaxşı göstəricidir. Bütün bunlar bu gün haqqında danışdığımız və Ali Dövlətlərarası Şuranın birinci iclası çərçivəsində məruzələrdə dinlədiyimiz uğurların rəhnidir. Konkret layihələrin iyirmiyə çatdırılması onun nəticəsidir ki, bizim keçmişdə razılığa gəldiklərimizin hamısı yerinə yetirilib.

Şavkat Miromonoviçin qeyd etdiyi kimi, bu gün biz rəsmən müttəfiq olduq. Bu, razıyam ki, əslində, tarixi məqamdır. Müttəfiqlik münasibətləri haqqında müqavilə iki ölkənin imzalaya biləcəyi ən yüksək beynəlxalq sənəddir. Biz bu gün Daşkənddə, həqiqətən də, münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Əminəm ki, üzərimizdə dolaşan və bununla bağlı bizə xeyir-dua verən əcdadlarımızın ruhları şad olacaq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldular. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə bizim münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək. Bu gün Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionları vahid geosiyasi regiona çevrilir və regionlarımızda müsbət proseslər Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan asılıdır. Ona görə də bu hadisə ölkələrimizin ictimaiyyəti tərəfindən çox düzgün qiymətləndirilməlidir fikrinə mən də qoşuluram.

### Xankəndidə yaradılan müəssisə dostluğumuzun daha bir rəmzidir

Şavkat Miromonoviç də artıq bu barədə danışdı, bizim bu gün müzakirə etdiyimiz məsələlər arasında yalnız bir layihəni ayrıca qeyd etmək istərdim, çünki o, əlamətdardır – bu, işğaldan azad olunmuş Xankəndi şəhərində yeni yüngül sənaye müəssisəsinin yaradılmasıdır. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun daha bir rəmzidir. Biz həmişə – istər işğal, istərsə də İkinci Qarabağ müharibəsi illərində və sonra da özbək xalqının qardaş dəstəyini hiss etmişik. Mən bu gün bu barədə danışmışam, Özbəkistan ilk ölkədir ki, Prezidentin təşəbbüsü ilə bizə mənəvi dəstək olmaqla yanaşı, həm də azad olunmuş ərazilərin bərpasında kömək edib. Bir il əvvəl, avqustun 23-də biz Füzulidə Mirzə Uluqbəy adına 960 şagird üçün nəzərdə tutulan və münasibətlərimizin rəmzi olan, özbək qardaşlarımızın gözəl münasibətlərinin simvoluna çevrilən məktəbin açılışında olduq.

Qarabağ haqqında söylədiyiniz sözlərə görə sağ olun. Hamınız bilirsiniz ki, bu, təxminən 30 il ərzində bizim üçün bir nömrəli məsələ idi. Ərazi bütövlüyünün bərpası və sonra ötən ilin sentyabrında suverenliyin tam təmin edilməsi tarixi ədalətin və beynəlxalq hüququn bərqərar olmasıdır.

Bu gün biz əmtəə dövriyyəsinin artırılması, iqtisadi-ticari əlaqələrimizin konkret məzmunla zənginləşdirilməsi, həmçinin üçüncü ölkələrdə birgə işimizi müzakirə etdik. Yəqin ki, bunun üçün bizə Birgə İnvestisiya Fondunun kapitalını artırmaq lazım gələcək, artıq eşitdiyimiz kimi, layihələrə 500 milyon ayrılıb. Odur ki, bu kapitalı həm ikitərəfli gündəlik, həm də üçüncü ölkələrə investisiyalar ilə çıxış üçün artıracağıq.

Qardaş ölkələr, müttəfiqlər kimi inamla, layiqincə, çiyin-çiyinə addımlayırıq və irəliləməyə davam edəcəyik.

# Azərbaycan və Özbəkistan Mədəniyyət nazirlikləri arasında Yol xəritəsi imzalanıb

Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub.



Prezident İlham Əliyev və Şavkat Mirziyoyev "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"ni imzalayıblar.

Həmçinin "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının birinci iclasının Qərarı" qəbul edilib.

Sahələr üzrə imzalanan sənədlər arasında "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Özbəkistan Respublikasının Mədəniyyət Nazirliyi arasında 2024–2026-cı illər üçün mədəni-humanitar əməkdaşlıq üzrə Yol xəritəsi" də var. Sənədi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və Özbəkistan Respublikasının mədəniyyət naziri Ozodbek Nazarbekov imzalayıblar.

Bundan əlavə, "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Özbəkistan Respublikasının Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişikliyi Nazirliyi yanında Turizm Komitəsi arasında 2024–2026-cı illər üzrə turizm sahəsində Fəaliyyət Planı", Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Məktəbəqədər və Ümumi Təhsil, Ali Təhsil, Elm və İnnovasiyalar nazirlikləri arasında əməkdaşlıq haqqında protokollar, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Özbəkistan Respublikasının İnvestisiyalar, Sənaye və Ticarət Nazirliyi arasında ticarət-iqtisadi və investisiya əməkdaşlığının daha da genişləndirilməsi üzrə 2024–2025-ci illər üçün Praktiki Fəaliyyət Planı" ("Yol xəritəsi"), "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2025–2026-cı illər üzrə Əməkdaşlıq Proqramı" və digər sənədlər imzalanıb.

Səfər çərçivəsində, həmçinin Bakı (Azərbaycan) ilə Daşkənd (Özbəkistan), Beyləqan (Azərbaycan) ilə Şəhrisəbz (Özbəkistan), Quba (Azərbaycan) ilə Cizak (Özbəkistan) şəhərləri arasında regionlararası əməkdaşlıq haqqında sənədlər imzalanıb.

# Laçınlı günlərin əzəmət və təntənəsi

## Laçın Şəhəri Günü ikinci dəfə qeyd olundu – dosta sevinc, düşmənə gözdağı



*əvvəli səh. 1-də*

### Səhnə əsərləri, ustad dərsləri

Laçında bayram şöləni çərçivəsində şəhərdəki seyrəngahda xalq tətbiqi sənəti üzrə ustad dərsləri də təşkil olundu. Şəbəkə, həsirçilik, keramika, misgərlik və s. sahələr üzrə məlumat verildi, onların bir çoxunun hazırlanması prosesi əyani nümayiş etdirildi.

Daha sonra "Qoçdaş" interaktiv sərgisi nümayiş etdirildi. Müstəqil "Oyuq" uşaq teatrı tərəfindən milli nağıl qəhrəmanlarımız əsasında səhnəciklər göstərildi, Azərbaycanın uşaq kinematoqrafik nümunələrindən ibarət konsert proqramı keçirildi.

Bundan başqa, Şuşa Dövlət Musiqili Dram Teatrının təqdimatında "Qırmızıpapaq" tamaşası nümayiş olundu. Yevgeni Şvartsın eyniadlı əsərinin motivləri əsasında hazırlanan tamaşaya rejissor Əməkdar artist Loğman Kərimov quruluş verib. Musiqi tərtibatçısı Azad Məmmədov, quruluşçu rəssamı Valeh Məmmədovdur. Rolları Sürahi Əliməmmədova, Püstəxanım Zeynalova, Aybəniz Cahangirova, Nihat Heybətov, Orxan Abışov, Cavid Cavadzadə ifa edirlər.

Tamaşa doğma yurda qayıtmış laçınlı uşaqlar tərəfindən böyük maraqla qarşılandı.

### İlmələrdə yaşadılan milli-tarixi yaddaş

Laçın Şəhəri Günü tədbirlərinin daha bir ünvanı Həkəri çayının sahili idi. Mədəniyyət naziri Adil Kərimli burada əlamətdar gün münasibətilə təşkil edilən sərgilərlə tanış oldu.

Sonra "Can Laçın" yarmarkası – bölgəyə məxsus mətbəx nümunələrinin təqdimatı oldu. Eyni zamanda uşaqlar üçün əyləncəli tədbirlər – çərpələng uçurtma, maska, şar və torba oyunları, "face art" və s. keçirildi. Uşaq yazarları Sevinc Nuruqızı və Solmaz Amanova ilə uşaqların görüşü oldu, viktorinalar təşkil edildi.





Şəhər gününün ən yaddaqalan mərasimi isə "Ata vəsiyyəti – oğul Zəfəri" və "Bir millət, iki dövlət" adlı xalçaların hanadan kəsimi oldu.

"Ata vəsiyyəti – oğul Zəfəri" xalçası Ulu öndər Heydər Əliyevin Prezident İlham Əliyevə "Qarabağ vəsiyyəti" əsasında toxunub. "Bir millət, iki dövlət" xalçası isə Ümummilli lider Heydər Əliyevin Türkiyə-Azərbaycan qardaşlığı haqqındakı "Bir millət, iki dövlət" müdrik kəlamı əsasında hazırlanıb. Hər iki dövlətin bayrağının əks olunduğu xalçanın fonunda isə Qarabağın məşhur "Xətai" (XVII əsr) qrupuna aid "Əjdahalı" xalçasından və Türkiyənin "Lotto" (XVII əsr) xalçasından fraqmentlər verilib. Xalçaların müəllifi Elnarə Rəsulovadır.

***

Daha sonra tədbir çərçivəsində "poeziya saatı" təşkil edildi. Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhminin aparıcılığı ilə gerçəkləşən tədbirdə ilk olaraq yeni çapdan çıxmış "Laçın – 100" ədəbi antologiyasının təqdimatı oldu. Toplayanı və tərtibçisi şair-publisist İlham Qəhrəman olan kitab Laçın şəhərinin salınmasının 100 (1924–2024) illiyinə həsr edilib. Nəşrdə indiki Laçın ərazisində yazıb-yaratmış şair, nasir və aşıqların yaradıcılığından nümunələr toplanıb. 400 illik







dövrü əhatə edən antologiyanın poeziya bölümü Sarı Aşıq, Mir Həmzə Nigari kimi klassiklərin yaradıcılığı ilə açılır.

XVII, XVIII və XIX əsrlərdə yaşamış, yaradıcılığı günümüzə tam gəlib çatmayan və adları ədəbi mühitə məlum olmayan Aşıq Alı (suvatlı), Əmir Bəy, Aşıq Abbas, Qara Kərim, Şair Məmmədalı, Aşıq Cəfərqulu kimi saz-söz adamlarının yaradıcılığından nümunələr də kitabda yer alıb.

Təqdimatdan sonra laçınlı yazarlar Şərif Ağayar, Səddam Laçın, musiqiçilər – Əməkdar artist, xanəndə Ehtiram Hüseynov, həmçinin Xəyal Hüseynov, Aşıq Sahil, Aşıq Afil və digərləri bədii proqramla çıxış etdilər.

Sonda Şuşa Dövlət Musiqili Dram Teatrı aktyorlarının ifasında "Sarı Aşığın hekayəti" adlı teatral kompozisiya təqdim olundu.

### Qala-konsert və atəşfəşanlıq

Avqustun 26-da axşamüstü Həkəri çayının sahilində qurulmuş əsas səhnədə şəhər gününün möhtəşəm qala-konserti keçirildi.

Rəsmilər, tanınmış mədəniyyət nümayəndələri, Laçın sakinləri və digər qonaqlar konserti izlədilər.

Əvvəlcə böyük ekranda Prezident İlham Əliyevin Laçına səfəri və şəhər sakinləri ilə görüşünü əks etdirən kadrlar nümayiş olundu.

Musiqi şöləninde Xalq artisti Faiq Ağayev, Əməkdar artistlər Ehtiram Hüseynov, Lalə Məmmədova, İlkin Əhmədov, Rəşad İlyasov, Elza Seyidcahan, Günel Şeyxova, ifaçılar Aşıq Ramin, Araz Hümbətli, Kamilə Nəbiyeva, Fuad Musayev, Könül Məmmədli, Vüsal Hacıyev, Murad Arif, həmçinin "Amarok" qrupu, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və "Laçın" muğam qrupu çıxış etdilər.

Məhəbbət Kazımovun "Laçınım", "Dağlar boyda dağım var", Aydan Əliyevanın "Gözəl Azərbaycan", Rauf Məmmədovun "Yaşa, Azərbaycan!", Oqtay Kazımının "Ey həyat, sən nə qəribəsən?", Emin Sabitoğlunun "İncəbellim", Elza Seyidcahanın "Laçınımın dağlarında", Ələkbər Tağıyevin "El yolunda", Bəhram Nəsibovun "Anadır arzulara", Telman Hacıyevin "Vətən süitası" və Xanım İsmayılqızının "Sən qalibsən!" mahnıları səsləndirildi.

"İncilər" kompozisiyası, "Cəngi" rəqsi, "Xalq bayatıları", "Misri" aşıq havası, "Uzundərə" xalq rəqsi, "Ay Laçın" xalq mahnısı və "Şur" təsnifi də ifa edildi.

Daha sonra respublika və beynəlxalq müsabiqələr laureatı, gənc tarzən İbrahim Babayevin solo çıxışı oldu. O, xalq mahnısı "Unuda bilmirəm", Azərbaycan muğamının müasirliklə sintezi olan "MuğaMix", "Səmada rəqs" və digər musiqi nömrələrini ifa etdi.

Bütün çıxışlar böyük coşqu ilə qarşılandı, tamaşaçılar tərəfindən gur alqışlarla mükafatlandırıldı.

Laçın Şəhəri Günü tədbirlərinə dosta sevinc, düşmənə gözdağı olan möhtəşəm atəşfəşanlıqla yekun vuruldu. Azad şəhərin səması rəngbərəng işıqlara büründü.

Beləcə, növbəti dəfə təntənə ilə qeyd olunan Laçın Şəhəri Günü unudulmaz anlarla tarixə qovuşdu.

**Nurəddin Məmmədli**
**Bakı-Laçın-Bakı**

Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlar, həmçinin şəhid övladları üçün Fond tərəfindən keçirilən əyləncə və istirahət proqramında iştirak ediblər.

# Heydər Əliyev Fondu uşaqlar üçün şənlik keçirib

## Birinci vitse-prezident Mehriban Əliyeva şənlikdə iştirak edib





Mehriban Əliyeva və Leyla Əliyeva uşaqlarla söhbət edib, onların təşkil edilən bu şənliklə bağlı fikirləri ilə maraqlanıb, şəkillər çəkdiriblər.

Uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və İnteqrasiya təlimli internat məktəbinin sakinləri təəssüratlarını bölüşüb, burada yeni dostlar qazandıqlarını söyləyib, iştirak etdikləri oyunlar, əyləndikləri attraksionlar barədə danışıblar.

Xəzərin sahilində yerləşən "Dalğa Beach" istirahət məkanında təşkil olunan tədbir çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva və Leyla Əliyeva uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların əl işlərindən ibarət sərgi ilə də tanış olub, onlarla birgə rəsm çəkiblər.

Uşaqlar çəkdikləri rəsm nümunələrini Mehriban xanım Əliyevaya hədiyyə ediblər. Tədbir zamanı Mehriban xanım Əliyeva 26 avqustda doğum günlərini qeyd edən şəhid övladları və uşaq evinin sakinləri ilə də görüşüb, onları təbrik edib.

İsti yay günündə uşaqlar hovuzda doyunca əylənib, animatorların iştirakı ilə rəqs edib, rəsm, oyun, "face art" və digər zonalarda müxtəlif əyləncələrə qoşulub, bacarıqlarını nümayiş etdiriblər.

Uşaqlar birgə nahar süfrəsi arxasında növbəti sevincli anlar yaşayıblar.

Birinci xanım Mehriban Əliyeva doğum günü olan uşaqlar üçün tort kəsərək onlara təqdim edib.

Balacaların sevimli qəhrəmanlarını canlandıran personajlar da şənlik iştirakçılarını əyləndiriblər. Səhnəciklər, oynaq, şux mahnılar, rəqslər bayram tədbirini daha da rəngarəng edib.

Tədbirlərin yekununda unudulmaz istirahət gününün xatirə olaraq hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

Şənlikdə DJ-lərin, animatorların iştirakı ilə müxtəlif əyləncə və şou proqramlar təqdim edilib, maraqlı müsabiqələr, idman estafetləri və oyunlar keçirilib.



***

Heydər Əliyev Fondu tərəfindən avqustun 26-da Gəncədəki 4 saylı Uşaq evi sosial xidmət müəssisəsində də xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənliklər təşkil edilib.

***

Fondun uşaqlar üçün keçirdiyi növbəti şənliyin ünvanı Şəki şəhəri olub. 6 saylı Uşaq evi sosial xidmət müəssisəsində təşkil olunan şənlikdə azyaşlılar və yeniyetmələr müxtəlif oyunlar və müsabiqələr vasitəsilə bacarıq və qabiliyyətlərini nümayiş etdirib, yay ovqatlı yaddaqalan bir gün keçiriblər.

"Xəzinə ovu", "Balonlu estafet", "Sehrbaz" əyləncəli oyunlar uşaqların həm istirahətinin səmərəli təşkilinə, həm də inkişafına yaddaqalan töhfə olub.

# Azərbaycan və Özbəkistan sənətçilərinə fəxri adlar təqdim edilib

Prezident İlham Əliyevin 22 iyul 2024-cü il tarixli sərəncamı ilə Özbəkistanın tanınmış estrada müğənnisi, bəstəkar, məşhur "Yalla" qrupunun bədii rəhbəri Fərrux Zakirovun "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adına layiq görülməsi barədə məlumat vermişdik.





Bu il avqustun 6-da isə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin fərmanı ilə görkəmli Azərbaycan bəstəkarı və müğənnisi Polad Bülbüloğlu "Özbəkistan Respublikasının Xalq artisti" fəxri adı ilə təltif edilib.

Avqustun 22-də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində Daşkənddəki Forumlar Sarayında hər iki sənətkara fəxri adların təqdimetmə mərasimi keçirilib.

Mərasimdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov, iki qardaş ölkənin tanınmış incəsənət xadimləri və digər şəxslər iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli Fərrux Zakirovun təltif edilməsi ilə bağlı Azərbaycan Prezidentinin sərəncamını oxuyub.

Özbəkistan Prezidenti Administrasiyası Sosial inkişaf şöbəsinin müdiri Odil Abdurahmanov isə Polad Bülbüloğlunun təltif olunması haqqında Prezident Şavkat Mirziyoyevin fərmanını diqqətə çatdırıb.

Sonra fəxri adların nişan və vəsiqələri sahiblərinə təqdim olunub.

Mükafatlandırılan sənətçilər çıxış edərək yaradıcılıqlarına verilən yüksək qiymətə görə qardaş ölkələrin rəhbərlərinə minnətdarlıqlarını bildiriblər. Hər iki ölkənin incəsənət ustaları da çıxış edərək xalqlarımız arasında mədəni əlaqələrin yüksək səviyyəsindən məmnunluqlarını bildiriblər.

Sonda xatirə şəkilləri çəkdirilib.

***

Qeyd edək ki, avqustun 23-də Daşkənddə Azərbaycan və Özbəkistan incəsənət ustalarının birgə qala-konsertində hər iki sənətkar da səhnəyə çıxıb.

Fərrux Zakirov və Polad Bülbüloğlu repertuarlarından mahnılar ifa ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida Mirziyoyeva konsertə baxıblar.

# Operatorluq və heykəltaraşlıq üzrə dövlət sifarişli yerlər niyə boş qalır?

## DİM rəhbəri ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələrini şərh edib

*əvvəli səh. 1-də*

Plan yerləri ən çox ikinci ixtisas qrupunda dolub (98,29%). Burada plan yerlərinin sayı imtahan verən və müsabiqədə iştirak etmək hüququ olan abituriyentlərin sayından çox olsa da, əvvəlcədən də proqnoz edildiyi kimi subbakalavrların şansı var idi və onların hesabına dolma göstəriciləri yüksəkdir. Ən çox subbakalavr (3549 nəfər) da məhz II qrup üzrə ixtisaslara qəbul olunub.

I qrup üzrə isə 3053 nəfər subbakalavr ali məktəb tələbəsi adını qazanıb. Subbakalavrlar ümumilikdə 34 müxtəlif ali təhsil müəssisəsinə qəbul olunublar. Bu il ali təhsil müəssisələrinə qəbul olunan subbakalavrların sayı da artıb və ötənilki göstəricidən 695 nəfər daha çoxdur.

I, III, IV və V ixtisas qruplarında plan yerləri müvafiq olaraq 93,37%, 97,38%, 89,96% və 92,20% dolub.



Ayrıca ali təhsil müəssisələri üzrə gəldikdə, I mərhələdən sonra tələbə qəbulu aparılan 44 ali təhsil müəssisəsinin 25-də plan yerləri 95%-dən çox, o cümlədən 8 ali təhsil müəssisəsində (Azərbaycan Tibb Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, ADA Universiteti, Azərbaycan Dövlət Dəniz Akademiyası, Bakı Ali Neft Məktəbi, Dövlət Gömrük Komitəsinin Akademiyası, Azərbaycan İlahiyyat İnstitutu, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası) 100 % dolub.

İlk dəfə qəbul aparılan Qarabağ Universitetinin (Xankəndi şəhəri) plan yerləri 98,57%, Türkiyə – Azərbaycan Universitetinin plan yerləri 96,67%, İtaliya – Azərbaycan Universitetinin plan yerləri 95,52% dolub.

I mərhələdən sonra V qrupda dövlət sifarişli bir sıra ixtisaslarda boş yerlərin qalması da diqqət çəkir. "V qrupda müxtəlif ixtisaslar var. Məsələn, bu il dirijorluq ixtisasında boş yerlər qalıb. Burada xüsusi bacarıq və bilik tələb olunur. Elə sahə var ki, necə deyərlər, dəbdə olan sahədir. Məsələn, hamı özünü dizayner görür", – deyə Maleykə Abbaszadə bildirib.

DİM rəhbəri V qrup ixtisaslarda ödənişli əsaslarla təhsil alanlarının sayının dövlət sifarişli yerlərdə təhsil alanların sayından çox olması ilə bağlı suala cavabında deyib ki, hansı ixtisaslarda dövlət sifarişli yerlərin sayının artırılması, ya da azaldılması bizdən asılı deyil. Qəbul planı hökumət tərəfindən həm universitetlərlə müzakirə olunur, həm də ölkədə olan tələbat nəzərə alınır. Bunu hansısa bir ixtisas üzrə həll etmək mümkün deyil: "Hər il biz görürük ki, operatorluq, heykəltaraşlıq ixtisasları üzrə dövlət sifarişli yerlər boş qalır. Bu, o demək deyil ki, bizə bu sahə üzrə mütəxəssislər lazım deyil. Yəni dövlət sifarişli yerlər qalmalıdır. Digər sahəyə, məsələn, estrada sənətinə gedənlər çoxdur. Bu da o demək deyil ki, biz orada dövlət sifarişli yerlərin sayını artırmalıyıq. Bu zaman həmin sahəyə olan tələbat müəyyən edilir. Məsələn, Mədəniyyət Nazirliyi hansı sahəyə ehtiyac olduğunu müəyyənləşdirir. Fikrimcə, instrumental ifaçılığa bizdə simfonik orkestrdə olan ifaçılara tələbat nəzərə alınır, nadir alətlərin ifaçısına olan tələbat nəzərə alınır. Bunlar hamısı çoxparametrli məsələdir. Ona görə də V qrupda dövlət sifarişli yerlərin sayının artırılması barədə qərar vermək yaxşı olmayacaq. İstedadlı uşaqlar V qrupda onsuz da dövlət sifarişli yerlərə qəbul olunur".

Qeyd edək ki, 2024–2025-ci tədris ili üçün ali təhsil müəssisələrinə tələbə qəbulunun nəticələrinə əsasən, V qrup ixtisaslarda 2565 nəfər ödənişli, 1549 nəfər dövlət sifarişli yerlərdə olmaqla ümumilikdə 4114 nəfər təhsil alacaq. Hazırda V ixtisas qrupu üzrə 348 plan yeri boş qalıb.

Eyni zamanda, I ixtisas qrupu üzrə 1304, II ixtisas qrupu üzrə 246, III ixtisas qrupu üzrə 400, IV ixtisas qrupu üzrə 463 plan yeri boş qalıb.

Avqustun 28-dən sentyabrın 2-dək isə boş qalan plan yerlərinə ixtisas seçimi aparılacaq.

Ali təhsil müəssisələrinə qəbul olunanlar avqustun 28-dən sentyabrın 6-dək elektron qaydada portal.edu.az saytı vasitəsilə qeydiyyatdan keçməlidirlər.

# Birinci xanımlar Daşkənddə sərgidə

Xəbər verildiyi kimi, avqustun 23-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Daşkənddə Özbəkistanın birinci xanımı Ziroatxon Mirziyoyeva və qızı Saida Mirziyoyeva ilə birgə bu ölkənin Xalq rəssamı Akmal Nurun əsərlərindən ibarət sərgi ilə tanış olub, özbək milli geyimlərindən ibarət kolleksiyaya baxıblar.



"Sevgi bağında" adlı sərgidə rəssam Akmal Nurun son illərdə çəkdiyi əsərlər nümayiş olunur.

O, sərgidə yer alan əl işləri barədə məlumat verib. Bildirib ki, əsərlərdə ana sevgisi və kənd həyatının motivləri, ailə və ən əsası, Tanrının insana bəxş etdiyi təlelər canlandırılıb.

Sonra birinci xanımlar və qızları naxışçı Mədinə Kasımbayevanın kolleksiyası ilə tanış olublar. Hər bir məmulat ənənəvi özbək naxışvurmasının müxtəlif texnikalarından istifadə olunmaqla əllə yerinə yetirilib.

Qeyd olunub ki, "Süzane" naxışının vurulmasında pambıqdan və ipəkdən hazırlanmış materiallardan istifadə edilir. Saplar əllə boyanır, sonra dağ kvarsı və duz əlavə olunmaqla qaynadılır ki, bu da saplarda boyanın uzunmüddətli qalmasından ötrüdür.

Birinci xanım Mehriban Əliyevaya Özbəkistan mədəniyyətinin təbliğ olunduğu xatirə hədiyyələri təqdim edilib.

# "Sənsiz gecələr" – Füzulinin 530 illiyi münasibətilə klip çəkilib

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494–1556) anadan olmasının 530 illiyi münasibətilə Əməkdar artist, vokal ifaçısı Ramil Qasımov "Sənsiz gecələr" adlı klip təqdim edib.




Klipin ideya müəllifi görkəmli ədəbiyyatşünas alim, akademik Rafael Hüseynovdur. Məhəmməd Füzulinin sözlərinə musiqini bəstəkar, müğənni Rizvan Sədirxanov yazıb, aranjiman Tural Məmmədova məxsusdur. Klipin səs rejissoru Əməkdar mədəniyyət işçisi Faiq Babayevdir.

# Türkiyə ilə kitabxana işi sahəsində birgə layihələr müzakirə olunub

Ölkəmizin Ankaradakı səfirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kitabxanalar və nəşriyyatlar baş idarəsinin rəhbəri, Türkiyə Milli Kitabxanasının direktoru Taner Beyoğlu ilə görüşüb.



Görüş zamanı iki ölkə arasında mədəniyyət, kitabxana, nəşriyyat sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Azərbaycan mədəniyyətinin Türkiyədə tanıdılması istiqamətində görüləcək işlər, Türkiyə Milli Kitabxanasına və bölgələrdə yerləşən kitabxanalara Azərbaycana dair nəşrlərin hədiyyə olunması, Türkiyə fondlarında saxlanılan Azərbaycan klassik irsinin, nadir nüsxələrin tədqiqi, qədim xəritələrin sərgisinin təşkili ilə bağlı fikir mübadiləsi aparılıb.

Gələcəkdə qarşılıqlı olaraq elmi jurnallardan onlayn istifadə edilməsi, türk dövlətləri arasında elektron kataloq və elektron kitabxana sahəsində inteqrasiya, birgə layihələrin, tədbirlərin reallaşdırılmasına dair fikirlər səslənilib.

# Daşkəsəndə növbəti yaylaq şöləni

Avqustun 25-də Daşkəsən Rayon İcra Hakimiyyətinin dəstəyi və Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Xoşbulaq yaylağında növbəti "Yaylaq günü" keçirilib.



Tədbirdə Daşkəsənin icra başçısı Orxan Abbasov, Gəncə-Daşkəsən RMİ-nin rəisi Pərvin Kazımov, mədəniyyət işçiləri, yaradıcı kollektivlər, kənd sakinləri, qonaqlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

"Yaylaq günü"nün qeyd edilməsində məqsəd Azərbaycan xalqının zəngin və çoxəsrlik mədəni irsinin, yüzilliklərlə formalaşmış yaylaq ənənəsinin təbliği, əhalinin asudə vaxtının səmərəli təşkili, eyni zamanda rayonun dayanıqlı turizm potensialının üzə çıxarılmasından ibarətdir.

Tədbir çərçivəsində F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının musiqi heyəti və solistlərinin, el aşıqlarının rəngarəng çıxışları, Gəncə Dövlət Dram və Kukla teatrları aktyorlarının ifasında səhnəciklər, şux rəqslər təqdim olunub. Həmçinin əl işləri və yaylaq məhsullarının satış-sərgisi olub, milli kulinariya nümunələri nümayiş etdirilib.

# "Unudulmaz qəhrəman" – Rahib Məmmədovun xatirəsi anılıb

Ağdam rayonunda cəsur əsgər Rahib Məmmədovun (1967–1987) xatirəsi anılıb. "Unudulmaz qəhrəman" adlı tədbirdə şəhid ailələri, veteranlar, mədəniyyət və təhsil işçiləri, məktəblilər, kənd sakinləri iştirak ediblər.



Tədbir iştirakçıları əvvəlcə Rahib Məmmədovun Mahrızlı kənd tam orta məktəbinin qarşısında qoyulan büstünün önünə gül dəstələri qoyaraq xatirəsini yad ediblər.

Bildirilib ki, Rahib Gülmalı oğlu Məmmədov 1967-ci il avqustun 25-də Ağdam rayonunun Mahrızlı kəndində anadan olub. 1987-ci ildə hərbi xidmət keçdiyi Gürcüstanın Xobi rayonunun Çaladidi kəndində böyük fədakarlıq göstərərək təbii fəlakət zamanı 28 sakini seldən xilas edib və qəhrəmanlıqla həlak olub. Ölümündən sonra "Qırmızı Ulduz" ordeni ilə təltif olunub. Təhsil aldığı Mahrızlı kənd tam orta məktəbi onun adını daşıyır. Məktəbin həyətində onun adına "Döyüş şöhrəti" muzeyi yaradılıb. Bakının Xətai rayonunun Əhmədli yaşayış massivində Rahib Məmmədov adına küçə var. Gürcüstanın Çaladidi kəndində cəsur əsgərin abidəsi qoyulub.

Tədbirdə məktəblilər vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər. İştirakçılar muzeyin ekspozisiyası ilə tanış olublar.

# Laçında 954 nəfərin məşğulluğu təmin edilib

Laçının azad olunmasından indiyədək yenidənqurma və ərazilərin bərpası istiqamətində məqsədli şəkildə irəliləyirik. Həmin dövrdən başlayaraq Laçın şəhərinə 2100-ə yaxın sakin köçürülüb, 700-dən çox tikili bərpa olunub.



Bunu jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov söyləyib.

"Bu gün bir çox insanlar arzulayır ki, Laçının gözəlliyini görmək üçün buraya gəlsin. Doğrudan da, bu gün Laçın arzular şəhərinə çevrilib. Bu da bizi çox sevindirir", – deyə o qeyd edib.

Böyük Qayıdış proqramı üzrə görülən işlər çərçivəsində doğma yurd yerlərinə – Laçın şəhərinə və Laçının Zabux və Sus kəndlərinə köçürülən sakinlərin də aktiv məşğulluq proqramları ilə əhatə olunması işləri davam etdirilir.

Bu barədə isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyindən məlumat verilib.

Məlumatda bildirilir ki, Laçına köçürülən sakinlərdən artıq 954 nəfərin məşğulluğu təmin olunub. O cümlədən 32 sakin üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar qurulub. 39 sakin üçün isə peşə hazırlığı kursları təşkil edilib. Hazırda daha 255 sakinin məşğulluğuna dəstək işləri aparılır.

Dövlət Məşğulluq Agentliyinin Şərqi Zəngəzur Regional Məşğulluq filialının Laçın xidmət şöbəsi də fəaliyyət göstərir.

# Almaniya universitetinin təcrübəçi tələbələri bölgələrimizlə tanış olublar

Almaniyanın Gissen şəhərindəki Yustus Libix Universitetinin Elm və Təhsil Nazirliyinin akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunda təcrübə keçən tələbələri Florian Behrens və Gülay Göktaş müəssisələr arasında bağlanmış əməkdaşlıq çərçivəsində Samur-Yalama Milli Parkına səfər ediblər.

İnstitutdan bildirilib ki, icraçı direktor Zaur İmrani və Demoqrafiya və əhali coğrafiyası şöbəsinin əməkdaşı Bəyimxanım Hüseynovanın müşayiəti ilə tələbələr Samur-Yalama Milli Parkının yaranma tarixi, geoturizm imkanları, turizm potensialı və infrastrukturu barədə geniş məlumat alıblar.

Tələbələr həmçinin adları çəkilən müşayiətçilərin iştirakı ilə Lənkəran zonasında yerləşən Hirkan Milli Parkı, Xanbulançay su anbarı, Bəlləbur qalası, Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi və digər məkanlarda olublar.

Ekskursiya ərzində tələbələr olduqları ərazilərin tarixi və ekoturizm potensialı haqqında məlumatlandırılıb, onları maraqlandıran suallara ətraflı cavablar verilib.



# Böyük ədəbiyyat və sənət fədaisi

## Xızıda "Cəfər Cabbarlı günü" qeyd edildi

Cəfər Cabbarlının Ev-Muzeyinin (Bakı) və "C.Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım" İctimai Birliyinin birgə təşkilatçılığı ilə ədibin Xızı şəhərində yerləşən ev-muzeyində "Cəfər Cabbarlı – ədəbiyyatımızın böyük sənət fədaisi" adlı tədbir keçirildi.

Tədbir ictimai birliyin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin yardımı ilə həyata keçirdiyi layihə çərçivəsində təşkil edilmişdi.

Paytaxtdan gedən elm və mədəniyyət xadimləri və Xızı rayon ictimaiyyətinin nümayəndələri əvvəlcə Cəfər Cabbarlının abidəsini ziyarət edib, önünə çiçək dəstələri qoydular.

Sonra tədbir ədibin ev-muzeyində davam etdi.

"C.Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım" İB-nin sədri Əməkdar mədəniyyət işçisi Qəmər Seyfəddinqızı layihə haqqında qısa məlumat verdi.



Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin nümayəndəsi Mövsüm Bağırov, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, Cabbarlı irsinin tanınmış tədqiqatçısı, filologiya elmləri doktoru, professor Asif Rüstəmli, Azərbaycan Milli Konservatoriyasının kafedra müdiri filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy, konservatoriyanın nəzdində İncəsənət Gimnaziyasında teatr şöbəsinin müdiri Əməkdar müəllim Hicran Sadıqzadə, Əməkdar artist Hüsniyyə Mürvətova, "Dədə Qorqud" Milli Fondunun prezidenti, "Azərbaycan dünyası" jurnalının təsisçisi və baş redaktoru Eldar İsmayılov, Cabbarlının Xızıdakı ev-muzeyinin direktoru Həcər Rəsulova və başqaları çıxış etdilər.

Tədbirin bədii hissəsində Cəfər Cabbarlının yaradıcılığına həsr olunmuş maraqlı proqram təqdim edildi.

Bakı Bələdiyyə Teatrının aktrisası H.Mürvətova C.Cabbarlı poeziyasından nümunələr söylədi. Əməkdar artist, instrumental ifaçı (qanun) Rəşad İlyasov Cabbarlının şeirlərinə yazılan bir neçə mahnını səsləndirdi. İncəsənət Gimnaziyası teatr şöbəsinin şagirdləri dramaturqun əsərlərindən parçaları ifa etdilər.

Yasamal rayon MKS-nin Q.Musabəyov adına 3 nömrəli kitabxana filialının müdiri Arzu Xudayarova, İncəsənət Gimnaziyasının müəllimi Nurlan Rzayev və həmin təhsil ocağının şagirdi Rəhimə Mənsimzadə "C.Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım" İctimai Birliyinin fəxri fərmanı ilə təltif olundular.

**Lalə**

# Şan-şərəf təqvimimizin yeni günü

## Laçın Şəhəri Günü ilə bağlı tədbirlər keçirilib

Avqustun 26-da Masallı rayon Mərkəzi Kitabxanasında rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə 26 avqust – Laçın Şəhəri Gününə həsr olunmuş "Şan-şərəf təqvimimizin yeni günü" adlı tədbir keçirilib.





Kitabxananın əməkdaşı Günay Xəlilova, muzeyin direktoru Əntiqə Tağıyeva əlamətdar günün tarixindən, qəhrəmanlıq tariximiz olan Vətən müharibəsindən söz açıblar. Bildirib ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən 31 iyul 2023-cü il tarixində işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi haqqında sərəncam imzalanıb. Sərəncamla 26 avqust (2022-ci ilin həmin günü Laçın şəhəri Azərbaycanın suverenliyi altına qayıdıb) tarixi Laçın Şəhəri Günü elan edilib.

Şəhid baş leytenant Şəmistan Yusiflinin atası Şükran Yusifli, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyi Masallı rayon filialının sədri Nahid Rəhimov, Aprel döyüşləri və Vətən müharibəsi iştirakçısı, qazi Nazim Cəfərzadə, təqaüddə olan mayor Bəhruz Mehbalıyevin çıxışı və kitabxananın əməkdaşı Gülər Piriyevanın məruzəsi dinlənilib.

***

Yardımlı rayon Mərkəzi Kitabxanasında oxucuların iştirakı ilə Laçın Şəhəri Günü ilə bağlı dəyirmi masa keçirilib. Kitabxananın şöbə müdiri Vasif Abdulov çıxışında Laçın Şəhəri Gününün təsis olunmasından danışıb. Kitabxananın əməkdaşı Rizvan Adişov mövzu ilə bağlı məruzə edib.

***

Lerik rayon Mərkəzi Kitabxanasında da Laçın Şəhəri Günü münasibətilə kitabxananın fəal oxucularının iştirakı ilə tədbir keçirilib. Kitabxananın əməkdaşı Xoşavaz Feyziyeva Laçın Şəhəri Günü haqqında, otuz ilə yaxın işğal altında qalmış əzəli torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olmasından bəhs edib.





***

Astara rayon Heydər Əliyev Mərkəzində Astara Dövlət Rəsm Qalereyası və Astara "Gənclər evi" sosial xidmət müəssisəsi əməkdaşlarının iştirakı ilə "Laçın – məğrur rayonun hekayəsi" mövzusunda tədbir keçirilib. Mərkəzin direktoru Kübra Səmədova 44 günlük Vətən müharibəsində əzəli torpaqlarımızın işğaldan azad edilməsi barədə danışıb. Sonra "Laçın rayonunun işğalı və azad edilməsi" mövzusunda film nümayiş olunub.

***

Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin tabe müəssisəsi olan Quba rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi Mərkəzi Kitabxanasının uşaq şöbəsi tərəfindən "Azad Laçın" adlı tədbir keçirilib.

# Ustad dərsi, yay düşərgəsi, konsert...



Salyan rayon Heydər Əliyev Mərkəzində "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ustad dərsi təşkil olunub. Rəsm dərnəyinin rəhbəri İlham İsayev balaca rəssamlarla yaradıcı söhbətlər aparıb, dərnək üzvləri sərbəst mövzularda qrafik, akril, sulu boya texnikalarında bacarıqlarını nümayiş etdiriblər. Sonda fərqlənən üzvlərə sertifikatlar təqdim olunub.

***

Neftçala rayon Mərkəzi Kitabxanasında "Ana dilimizin saflığı" layihəsinin təqdimatı keçirilib. "Məhsəti" Şairlər Məclisi İctimai Birliyinin təqdim etdiyi layihə çərçivəsində keçirilən görüşdə mədəniyyət işçiləri, söz adamları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Çıxışlarda Ulu öndər Heydər Əliyevin ana dilimizə tükənməz sevgisindən söhbət açılıb, şair və yazıçıların dilimizə gətirdiyi yeniliklərdən danışılıb.

***



Neftçala rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Təbiətin keşiyində" adlı günərzi yay düşərgəsi keçirilib. "Yaşıl dünya naminə həmrəylik ili çərçivəsində" təşkil olunan düşərgədə 10-16 yaşlı 50-dən çox şagird iştirak edib. Üç hissədən ibarət olan düşərgədə gənclərin dünyagörüşü və intellektual səviyyəsini inkişaf etdirmək məqsədilə müxtəlif rubrikalar təqdim edilib, əyləncəli oyunlar keçirilib. Sonda seçilən iştirakçılar təşəkkürnamə və hədiyyələrlə təltif ediliblər.

***

Mirzə Fətəli Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Narınqala Folklor evi və Məmmədsadıq Əliyev adına Şəki şəhər Diyarşünaslıq klubunun birgə təşkilatçılığı ilə "Muğam ruhun qidasıdır" mövzusunda konsert keçirilib.



Mədəniyyət işçiləri, qazilər və turistlərin izlədiyi konsertdən öncə muğam sənəti haqqında məlumat verilib, dövlətimizin bu sahənin inkişafına göstərdiyi diqqət və qayğıdan danışılıb. Sonra incəsənət nümayəndələrinin ifasında muğamlar, xalq və bəstəkar mahnıları səsləndirilib, muğama aid şeirlər söylənilib.

# Naftalan yaxınlığındakı arxeoloji məkan turizm marşrutuna salına bilər

AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru dosent Fərhad Quliyev və monitorinq qrupunun üzvü professor Hidayət Cəfərov Naftalan şəhəri yaxınlığında yerləşən çoxtəbəqəli Qalaboynu tarixi abidəsində çöl tədqiqatlarının gedişi ilə yerində tanış olublar. Tədqiqat dosent Müzəffər Hüseynovun rəhbərliyi ilə aparılır.

İnstitutdan bildirilib ki, qədim yaşayış yeri 2020-ci ildə M.Hüseynov tərəfindən qeydə alınıb və ilkin arxeoloji tədqiqatlar aparılıb. Bu il avqustun 1-dən aparılan tədqiqatlar zamanı burada böyük ölçülü çiy kərpicdən inşa edilmiş binanın divar qalıqları aşkarlanıb. Bina divarının eni 1.80-1.90 santimetrdir. Qalınlığı 15-30 santimetr olan daşların kənarları səliqə ilə yonulub. Belə kərpic divarlara və daşlara Şəmkir rayonunun Qaracəmirli kəndi ərazisində vaxtilə İlyas Babayev tərəfindən tədqiq edilmiş Əhəmənilər dövrünə aid saray kompleksində rast gəlinib. Abidədən aşkar edilmiş divar qalıqları, sütun altlıqları və saxsı məmulatına əsasən buranın Əhəmənilər dövrünə aid saray kompleksi olmasını söyləmək mümkündür. Qalaboynu yaşayış yeri sayca bu tip 3-cü abidədir. Orta əsrlərdə bu ərazidə qısamüddətli yaşayış olub.

Əraziyə baxış zamanı tədqiqatların daha geniş müstəvidə davam etdirilməsinin vacibliyi qeyd olunub. Şəmkir Qaracəmirli arxeoloji ekspedisiyasının alman və Azərbaycan arxeoloqlarından ibarət üzvləri abidənin Qaracəmirli saray kompleksi ilə oxşar olduğunu deyiblər.

Arxeoloji abidənin Naftalan şəhəri ərazisində aşkar edilməsinin əhəmiyyəti və gələcəkdə buranın turizm marşrutu kimi fəaliyyət göstərə biləcəyi vurğulanıb.

# “Qədim sənətin müasir məkanı”

## Xalça Muzeyinin yeni binada fəaliyyətinin 10 ili tamam oldu



Avqustun 26-da Azərbaycan Milli Xalça Muzeyinin yeni binada fəaliyyətə başlamasının 10-cu ildönümü tamam oldu.

Həmin gün bu münasibətlə muzeydə “Qədim sənətin müasir məkanı” adlı tədbir keçirildi.

Mədəniyyət Nazirliyi və Milli Xalça Muzeyinin təşkilatçılığı ilə gerçəkləşən tədbiri muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Əminə Məlikova açdı. O, muzeyin fəaliyyətindən bəhs edərək, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ölkənin mədəni irsinin inkişafı və qorunmasında göstərdiyi töhfəyə görə minnətdarlığını bildirdi.

Mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov əlamətdar gün münasibətilə muzeyin əməkdaşlarına təbriklərini çatdırdı. Bildirdi ki, 1972-ci ildən İçərişəhərdə yerləşən ilk ekspozisiyasından bu günə kimi muzeyin əməkdaşları fədakar, yorulmaz əmək nümayiş etdiriblər.

Sonra C.Səlimxanov nazirliyin fəxri fərmanını Əminə Məlikovaya təqdim etdi.

Muzeyin orijinal üslublu binasının memarı avstriyalı mütəxəssis Frans Yans qonaqlara müasir Bakının simvoluna çevrilən tikilinin ərsəyə gəlməsindən söz açdı, peşə təcrübəsini və təəssüratını bölüşdü.





Tədbirdə həmçinin binanın 10 illiyi üçün ziyalıların, incəsənət və mədəniyyət xadimlərinin iştirakı ilə ərsəyə gələn “Xalça mənim üçün...” videolayihəsi təqdim olundu. Layihənin ideya müəllifi Əminə Məlikova, rejissoru Cavid İmamverdiyevdir.

Yubiley ilində öz tarixi vətəninə qaytarılan, muzeyin kolleksiyasını daha da zənginləşdirən XIX–XX əsrlərə aid Şirvanın “Paşalı” kilimi, Qazaxın “Şıxlı”, Qarabağın “Açma-yumma” və “Bəhmənli” xalçaları ilk dəfə nümayiş etdirildi.

Bu unikal xalça nümunələri kolleksiyaçılar Mətin və Hüseyin Konukçular (Türkiyə), Mirko Kattai (İtaliya) və Hocat Abasi (Almaniya) tərəfindən muzeyə təqdim olunub.

Tədbir tanınmış cazmen, pianoçu, Əməkdar artist Emil Əfrasiyabın “Caz naxışı” adlı konsert proqramı ilə davam etdi.

Qeyd edək ki, 2007-ci ildə Prezident İlham Əliyev Azərbaycan Milli Xalça Muzeyi üçün ayrıca binanın tikilməsi haqqında sərəncam imzalayıb. Bu irimiqyaslı layihə Azərbaycan xalça sənətinin qorunması, inkişafı və gələcək nəsillərə çatdırılması məqsədilə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilib.



2014-cü il avqustun 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı keçirilən binada fəaliyyət göstərən muzey hazırda ölkəmizdə ən çox ziyarət olunan mədəniyyət ocaqlarından biridir.

Xatırladaq ki, Xalça Muzeyinin ilk ekspozisiyası 26 aprel 1972-ci ildə İçərişəhərdə XIX əsr memarlıq abidəsi olan Cümə məscidinin binasında açılıb. Ekspozisiyanın açılış mərasimində Ümummilli lider Heydər Əliyev də iştirak edib. 1970–1980-ci illərdə Heydər Əliyevin davamlı dəstəyi sayəsində muzey sənətkarlıq nümunələrini almaq və kolleksiyasını genişləndirmək imkanı əldə edib. 1992-ci ildə Azərbaycan Milli Xalça Muzeyi Neftçilər prospektində yerləşən Muzey Mərkəzinə (keçmiş Lenin Muzeyi) köçürülmüşdü.

**Lalə Azəri**

# Akademik Milli Dram Teatrında yeni mövsümün vədləri

Akademik Milli Dram Teatrı yeni mövsümə hazırlaşır. Ənənəsinə sadiq qalan sənət ocağı sentyabrın 8-də tamaşaçılarla görüşə “Qarabağnamə” tamaşası ilə gələcək.



Xalq yazıçısı İlyas Əfəndiyevin “Hökmdar və qızı” pyesi əsasında hazırlanan ikihissəli faciənin quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Əməkdar rəssam İsmayıl Məmmədovdur.

Yeni mövsüm üçün zəngin tamaşa planı hazırlayan yaradıcı heyətin ilk qastrolu Rusiyaya olacaq. Hüseyn Cavidin “İblis” faciəsi əsasında hazırlanan “İblis və...” tamaşası premyera nümayişini sentyabr ayının sonlarında Sankt-Peterburqda – Aleksandrinski Teatrında edəcək. Səhnə əsəri oktyabrın 4-dən 6-dək isə Milli Dram Teatrında tamaşaçılara təqdim olunacaq.

Xatırladaq ki, yeni tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, geyim üzrə rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Həsənov, bəstəkarı Azər Hacıəsgərli, məsləhətçisi Əməkdar mədəniyyət işçisi Azər Turandır.

Teatrda daha dörd tamaşa ilkin hazırlıq mərhələsindədir.

Oxunuş prosesi başa çatan ilk nümunə Vilyam Şekspirin “Maqbet” faciəsinin motivləri əsasında hazırlanan “Ledi Maqbet”dir. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, quruluşçu rəssamı Samirə Həsənova, bəstəkarı Azər Hacıəsgərli, rəqslərin quruluşçusu Lalə Hacıyevadır. Onu da qeyd edək ki, “Ledi Maqbet” Xalq artisti Bəsti Cəfərovanın yubileyi münasibətilə benefis tamaşa olacaq.

“Müharibə” tamaşası Mehriban Ələkbərzadə və Nihad Qulamzadənin eyniadlı əsəri əsasında ərsəyə gələcək. Quruluşçu rejissor Nihad Qulamzadə, quruluşçu rəssam Eldar Nağıyev, bəstəkar Nigar Süleymanovadır.

Rusiyada yaşayan həmyerlimiz, maraqlı quruluşları ilə tamaşaçıların yadında qalmağı bacaran Ərşad Əlkəbərov bu mövsümdə də Milli Dram Teatrı ilə əməkdaşlıq edəcək. O, Cəfər Cabbarlının “Aydın” əsərini səhnəyə qoyacaq.

Fransız yazıçı-dramaturqu Rober Tomanın “Səkkiz qadın” pyesi də bu teatrın səhnəsində özünün yozumunu tapacaq. Nümunəyə Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə quruluş verəcək.

# Gənc Tamaşaçılar Teatrı 97-ci mövsümünə hazırlaşır

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı 97-ci mövsümünü sentyabrın 21-də açacaq.



Gündüz seansında teatrın balacalar üçün hazırladığı “Qaraca qız” (quruluşçu rejissor Cənnət Səlimova), axşam isə “Fiqaronun toyu” (Nicat Kazımov) göstəriləcək.

İlin sonunadək nəzərdə tutulan plana görə, yazıçı-dramaturq İlqar Fəhminin “Şahnamə” dramı əsasında eyniadlı tamaşa hazırlanacaq. Səhnə əsərinə Əməkdar artist Nicat Kazımov quruluş verəcək.

Bundan başqa, uşaqlar üçün Mirmehdi Seyidzadənin “Cırtdan” mənzum nağılı əsasında eyniadlı tamaşa hazırlanacaq. Səhnə işini Elşad Rəhimzadə ərsəyə gətirəcək.

Hələ ötən mövsümdə səhnə oxunuşlarına başlanılan “Mən Feyerbaxam” adlı monotamaşa da ilin sonunadək teatrsevərlərə təqdim olunacaq. Əsasən festival üçün nəzərdə tutulan tamaşa alman dramaturqu Tankert Dorstun eyniadlı pyesi əsasında hazırlanır. Nümunənin quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, quruluşçu rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Zaur Rəşidovdur. Monotamaşada Əməkdar artist Şövqi Hüseynov oynayacaq.

# Kuklaçıların yaradıcılıq planları

Azərbaycan Dövlət Kukla Teatrı da 93-cü mövsümündə yeni tamaşalar vəd edir. Səfər proqramları, sosial-mədəni aksiyalar da nəzərdə tutulub.



Teatrda mövsümü premyera ilə açmaq ənənəsi davam edir. Sentyabrın 20-də “Lokomotiv və vaqonlar” tamaşasının ilk nümayişi olacaq. Sevinc Elsevərin eyniadlı pyesi əsasında hazırlanan tamaşaya teatrın baş rejissoru, Prezident mükafatçısı Anar Məmmədov quruluş verib. Birhissəli uşaq tamaşasının quruluşçu rəssamı Rəvanə Yaqubova, bəstəkarı Əməkdar artist Vüqar Camalovdur.

Tamaşada uşaqlara köhnə qatar stansiyasındakı qoca və lovğa Lokomotivin timsalında xudbinlik və kobudluğun lazımsız xüsusiyyət olduğu, bu keyfiyyətlərin ətrafdakılar tərəfindən daim mənfi qarşılandığı göstərilir.

Səhnə əsərində Əməkdar artist Cəmilə Allahverdiyeva, aktyorlar Səriyyə Mansurova, Cavid Telman, Yasin Abbasov və Səbinə Məmmədova iştirak edirlər.

Baş rejissor Anar Məmmədovun dediyinə görə, ötən mövsümdə (aprel) Türkiyədə III Beynəlxalq Hadi Poyrazoğlu Kukla və Qaragöz Festivalına qatılan yaradıcı heyət yeni mövsümdə də bu sənət bayramına dəvətlidir. Qardaş ölkə kuklaçıları ilə birgə Molla Nəsrəddin lətifələri əsasında tamaşa üzərində də iş başlanıb.

Azərbaycan Dövlət Kukla Teatrı ilə Gürcüstan Dövlət Kukla Teatrları Birliyi arasında imzalanan əməkdaşlıq memorandumu əsasında klassik nağıl nümunələrimizdən birini gürcü rejissor Nikoloz Sabaşvilinin quruluşunda görəcəyik.

İlin sonunadək cari repertuar planına uyğun olaraq, “Bir gün Şamaxı xanlığında” (müəllif Əliheydər Məmmədov, rejissor Anar Məmmədov), “Nənəmin aş qazanı” (müəllif və rejissor Səidə Haqverdiyeva), eləcə də plandankənar Üzeyir Hacıbəylinin felyeton və novellaları əsasında böyüklər üçün “Ordan-burdan” tamaşaları hazırlanacaq.

Plandankənar daha bir tamaşa teatrın rus bölməsi üçün seçilib. Belarus dramaturqu Dmitri Boqoslavskinin “Mən necə səyahətçi oldum” əsərinə teatrın baş rejissoru A.Məmmədov quruluş verəcək.

# “Yay festivalı”nda sevilən mahnılar səslənib

Yayın son istirahət günü – avqustun 25-də paytaxtdakı Heydər Əliyev Mərkəzinin parkında “Yay festivalı” adlı konsert olub.




Paytaxt sakinləri və şəhərimizin qonaqları parkda sevilən müğənnilərin ifasını dinləyib, gözəl bir axşam keçiriblər.

Zəngin proqramlı konsertdə tanınmış müğənnilərin iştirakı ilə müxtəlif janrlarda mahnılar ifa olunub. Sevilən mahnılar bu dəfə duet və qrup ifalarla səslənib. Əksər mahnılar belə interpretasiyada ilk dəfə təqdim olunub. Məqsəd musiqidə nəsillərin dialoqunu nümayiş etdirməkdir.



“Yay festivalı”nda Almaxanım Əhmədli və mərhum Aygün Bəylərin virtual dueti, Almaz Ələsgərli və Elçin Cəfərov, Aygün Kazımova və Zamiq Hüseynov, Elnur Məmmədov və Günay İbrahimli, Ədalət Şükürov və Nigar Camal, Faiq Ağayev və Dilarə Kazımova, Xəyyam Nisanov və Aysel, Könül Xasıyeva və İlkin Əhmədovun duetləri təqdim olunub.



Bundan əlavə, Mələkxanım Əyyubova və Ramal İsrafilov, Mənsum İbrahimov və Elnarə Xəlilova, Murad Arif və Mərdan Kazımov, Mübariz Tağıyev və Cavidan Fatihi, Nazim Pişyari və Mehin Hümbətova, Nazpəri Dostəliyeva və İlkin Dövlətov, Nisə Qasımova və Abbas Bağırov duetləri səhnəyə çıxıb.



Həmçinin Niyaməddin Musayev və “Döngə” qrupu, PRoMete və Samirə AliMəryam (Allahverdiyeva), “Rast” qrupu və Jamal Hashım, Sevda Ələkbərzadə və “Nənələr” qrupu, Tünzalə Ağayeva və Nadir Rüstəmli (duet) çıxış ediblər.

Gülyaz və Gülyanaq Məmmədovalar ilə Kamilə Nəbiyeva və İlahə Rüstəmova, Təyyar Bayramovla Rəvanə Əmiraslanlı və Mirəli Sarızadə, eləcə də Səbinə Babayeva, Sona Əzizova, Atilla Qərib və Atilla Məmmədovun qrup ifaları olub.

Azərbaycan Dövlət Rəqs Ansamblının qrupu da konsertə rəng qatıb.

# “Nağılların audiovizual təqdimatı”

## MEMİM yeni layihəyə başlayır

Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) Azərbaycan Dövlət Kukla Teatrının dəstəyi ilə “Nağılların audiovizual təqdimatı” adlı layihəyə başlayır.

Mərkəzdən bildirilib ki, layihənin məqsədi uşaqların dünyagörüşünü, düşüncə tərzini zənginləşdirmək, onlarda ədəbiyyata və teatra sevgi aşılamaqdır.

Kukla teatrının səhnələşdirdiyi tamaşalardan videokadrların yer aldığı, obrazlı səsləndirmə və gözoxşayan tərtibatda hazırlanan layihənin ilk buraxılışı Xanımana Əlibəylinin “Dovşanın ad günü” nağıl-poeması olub. Sadə məzmundan, maraqlı süjet xəttindən ibarət əsərdə hadisələr axıcı dillə təsvir edilir.

Maarifləndiricilik baxımından da əhəmiyyətə malik layihə çərçivəsində bir sıra qədim və müasir nağılların videotəqdimatlarının hazırlanması nəzərdə tutulur.

# İstedadlı müğənni “Qonağımız var” layihəsində

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Xətai rayon Heydər Əliyev parkında “Qonağımız var” layihəsi çərçivəsində növbəti konsert keçirilib.




Layihənin budəfəki qonağı tanınmış müğənni, aktyor, respublika və beynəlxalq müsabiqələr laureatı Amil Həsənoğlu (Məmmədov) olub.

Şəhid ailələrinin üzvləri, rayon ağsaqqalları, Heydər Əliyev adına Hərbi İnstitutun kursantları, ictimaiyyət nümayəndələri, sakinlərin izlədiyi konsert proqramında əvvəlcə ifaçının həyat və yaradıcılığı haqqında məlumat verilib.

Sonra Amil Həsənoğlu bir-birindən maraqlı musiqi nömrələri ilə tamaşaçıların könlünü oxşayıb.

## Vəcihə Səmədovanın 100 illiyinə həsr olunmuş poçt markası hazırlanıb

"Azərpoçt" tərəfindən Azərbaycanın ilk peşəkar qadın rəssamlarından biri Vəcihə Səmədovanın 100 illiyinə həsr olunmuş poçt markası hazırlanıb. Ümumdünya Poçt İttifaqı (Universal Postal Union – UPU) bununla bağlı paylaşım edib. Paylaşım ittifaqın "She Stamps" layihəsi çərçivəsində həyata keçirilib.




"Azərpoçt"dan bildirilib ki, blokun üzərində rəssamın portreti və rəsm əsərləri təsvir olunub.

Görkəmli rəssam, Əməkdar incəsənət xadimi Vəcihə Səmədova 1924-cü ildə anadan olub. O, ölkəmizin təsviri sənət tarixində öz layiqli dəstxətti və yaradıcılıq manerası ilə seçilən sənətkarlarımızdandır.

Qısa ömür yaşayan və fitri istedada malik olan Vəcihə Səmədovanın fərdi sərgiləri Bakı, Moskva, Sofiya və digər şəhərlərdə uğurla nümayiş etdirilib. Onun tablolarındakı rəng çalarları, milli kolorit, böyük ustalıq bu əsərlərin müxtəlif muzey və qalereyalarda layiqli yer tutmasına səbəb olub.

Vəcihə Səmədova 1965-ci ildə vəfat edib. Azərbaycan Rəssamlar İttifaqının sərgi salonu onun adını daşıyır.

## Tanınmış tarixçi-alim Nəsiman Yaqublu dünyasını dəyişib

Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsi Milli mətbuat tarixi kafedrasının professoru, Məhəmməd Əmin Rəsulzadə İrsini Araşdırma Mərkəzinin sədri tarix elmləri doktoru Nəsiman Yaqublu 25 avqust 2024-cü il tarixində, ömrünün 63-cü ilində avtomobil qəzasında vəfat edib.



1 sentyabr növbədənkənar parlament seçkilərində 125 saylı Zəngilan-Qubadlı seçki dairəsindən deputatlığa namizəd olan alim Zəngilanda seçicilərlə görüşdən qayıdarkən qəzaya düşüb.

Nəsiman Qara oğlu Yaqublu 22 fevral 1962-ci ildə Zəngilan rayonunun Zəngilan kəndində anadan olub. 1980–1983-cü illərdə BDU-nun Jurnalistika fakültəsində, 1983–1986-cı illərdə Sankt-Peterburq Universitetinin Jurnalistika fakültəsində təhsil alıb. 1986-cı ildən "Yazıçı" nəşriyyatında redaktor kimi fəaliyyət göstərib, sonradan "Azərbaycan ordusu" qəzetinin baş redaktoru olub.

N.Yaqublu müstəqilliyimizin ilk illərindən milli mətbuat tariximizi, Xalq Cümhuriyyəti irsini və Rəsulzadənin həyat və yaradıcılığını tədqiq edib. 2001-ci ildə "Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə" mövzusunda namizədlik (fəlsəfə doktorluğu), 2013-cü ildə "Azərbaycan milli istiqlal mübarizəsi və mühacirət mətbuatı" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. 2008-ci ildən BDU-da Milli mətbuat tarixi kafedrasında fəaliyyət göstərib.

Alimin "Ağrılı ömürlər", "Xocalı qırğını", "Məhəmməd Əmin Rəsulzadə. Azərbaycan davası", "Azərbaycan legionerləri", "Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu", "Bakının qurtuluşu", "Qafqaz İslam ordusu və Nuru paşanın Azərbaycanda izləri", "Azərbaycan mühacirət mətbuatı" (dərs vəsaiti), "Məhəmməd Əmin Rəsulzadə. İran yazıları (mühacirət dövrü)" və s. kitabları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

N.Yaqublu bu ilin mart ayında "Mədəniyyət" qəzetinə müsahibəsində demişdi: "Hazırda Rəsulzadənin 10 cildlik külliyyatının nəşri işini davam etdirirəm. Toplunun I cildi 2016-cı ildə, II cildi isə 2021-ci ildə çap olunub. Üçüncü cild üzərində iş gedir. Düşünürəm ki, Rəsulzadənin Fransa, Polşa və Almaniyada dərc edilmiş yazılarının hərəsi bir cild olacaq. Eyni zamanda məndə Rəsulzadənin 100-dən çox məktubu var. Bunları da bir cild altında nəşr etməyi planlaşdırıram. Rəsulzadənin həm rus, həm də fars dilindən çox gözəl tərcümələri var. Onları da ayrıca cilddə çap etdirəcəyəm".

Təəssüf ki, amansız ölüm alimin araşdırmalarını tamamlamağa imkan vermədi, elmimizə daha böyük töhfələrinin önünü kəsdi.

Allah rəhmət eləsin.

# "Böyük dayaq"la başlanan böyük sənət yolu

O, milli kinomuzda Dədə Qorqud, Bəxtiyar, Qəmərlinski, Mirzə Səfər və başqa neçə-neçə unudulmaz obrazlar yaradıb. "Böyük dayaq" filmində çəkildiyi ilk rolu – Qaraş obrazı ilə kino aktyoru kimi özünü sübut edib və bununla onun böyük sənət yolu başlanıb. Yaratdığı rolların xarakterik xüsusiyyətləri həm də həmin obrazların qəhrəmanlardan ibarət olması idi...





Avqustun 26-da kino sənətimizin inkişafında mühüm xidmətləri olan aktyor, Xalq artisti, Dövlət mükafatı laureatı Həsən Məmmədovun vəfatının 21-ci ildönümü tamam oldu.

Həsən Ağaməmməd oğlu Məmmədov 1938-ci il noyabrın 22-də Salyan rayonunda doğulub. Burada 2 nömrəli orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Fizika-riyaziyyat fakültəsinə daxil olub. İkinci kursda universitetdən çıxıb və bir müddət müxtəlif teatrların yardım heyətində aktyorluq edib. 1958-ci ildə Mirzəağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbəlik illərində müəyyən fasilələrlə Dövlət radiosunda diktor işləyib, 1962-ci ildə məşhur səhnə xadimi Mehdi Məmmədovun kursunu bitirib və təyinatla Akademik Milli Dram Teatrına göndərilib. Həmin ildən başlayaraq on il ərzində kino çəkilişləri ilə əlaqədar fasilələrlə bu teatrda çalışıb.

1962-ci ildə debüt etdiyi "Böyük dayaq" filminin (quruluşçu rejissor Həbib İsmayılov) ekranlara çıxmasından sonra məşhurlaşan Həsən Məmmədov ard-arda kino çəkilişlərinə dəvət alır. "Arşın mal alan" (1965, Əsgər), "Bir cənub şəhərində" (1969, Murad), "Sevil" (1970, Balaş), "Yeddi oğul istərəm..." (1970, Bəxtiyar), "Axırıncı aşırım" (1971, Abbasqulu bəy), "Gün keçdi" (1971, Oqtay) və s. filmlərdəki rolları ilə geniş tamaşaçı rəğbəti qazanır.

Həsən Məmmədov 1972-ci ildə teatrdan çıxaraq "Azərbaycanfilm"ə keçir və bundan sonrakı 20 ilini bütünlüklə kinoya həsr edir. Akademik Milli Dram Teatrın direktoru və bədii rəhbəri Həsənağa Turabovun dəvəti ilə 1992-ci ildən yenidən bu kollektivin aktyor truppasında çalışmağa başlayır. Onun teatrdakı rolları sırasında milli və Avropa klassiklərinin, çağdaş Azərbaycan və əcnəbi dramaturqların əsərlərindən bir çox xarakterik obrazlar var.

Bununla belə, geniş tamaşaçı kütləsi onu daha çox kino aktyoru kimi tanıyıb, sevib, bu gün də onun çəkildiyi filmləri rəğbətlə izləyir. Bu sırada yuxarıda qeyd edilən rollardan savayı "Arxadan vurulan zərbə" (Qəmərlinski), "Bizi bağışlayın" (Nəriman), "Birisigün, gecəyarısı" (Baba Əliyev), "İstintaq" (Murad), "Qızıl qaz" (Fərman), "Bakıda küləklər əsir" (General), "Alma almaya bənzər" (Qurban), "Səmt küləyi" (Əlibala), "İstintaq davam edir" (Əzimov), "Şahid qız" (Polkovnik), "Doğma sahillər" (Nuru), "Qəm pəncərəsi" (Məmmədhəsən əmi), "Papaq" (Mirzə Səfər), "Həm ziyarət, həm ticarət" (Əlimurad) kimi obrazları yada sala bilərik.

Ümumilikdə sənətkarın filmoqrafiyasında 70-dək ekran əsəri var.

Həsən Məmmədov teatr və kino sənətində göstərdiyi xidmətlərə görə 1971-ci ildə "Əməkdar artist", 1982-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülüb. "İstintaq" bədii filmindəki Murad roluna görə 1981-ci ildə SSRİ Dövlət, "Birisigün, gecəyarısı" kinolentindəki Baba Əliyev obrazına görə isə Azərbaycan SSR Dövlət mükafatları ilə təltif edilib.

# Parlaq yaradıcılıq və geniş oxucu sevgisi

### Əlibala Hacızadə ədəbiyyatşünas və tərcüməçi kimi də tanınıb

Maraqlı nəsr əsərləri ilə oxucuların rəğbətini qazanmış yazıçılarımızdan biri də Əlibala Hacızadə olub. Müəllif fərqli yaradıcılıq axtarışları ilə ədəbiyyatımıza yeni mövzular gətirib. Hekayə və romanlarında xalqımıza xas olan milli-mənəvi xüsusiyyətlərə və İslami dəyərlərə geniş yer ayırıb.

Əlibala Qüdrət oğlu Hacızadə 28 avqust 1935-ci ildə Biləsuvar rayonunun Ağalıkənd kəndində dünyaya göz açıb. Rayonun Xırmandalı kənd orta məktəbində təhsilini başa vurur. 1953-cü ildə Azərbaycan Dövlət Universiteti (indiki BDU) Şərqşünaslıq fakültəsinin fars şöbəsinə qəbul olunur.

Əlibala Hacızadə gənc yaşlarından ədəbi yaradıcılığa maraq göstərir. "Mənim müəlliməm" adlı ilk hekayəsi 1956-cı ildə, 21 yaşında "Gəncliyin səsi" almanaxında dərc olunur. Bundan sonra dövri mətbuatda imzası mütəmadi görünməyə başlayır. Çox keçmir gənc yazıçının "Heykəl gülür", "Pəhləvan", "Cehiz" hekayələri işıq üzü görür və oxucular tərəfindən maraqla qarşılanır. Ədəbi tənqidin qənaətinə görə, onun Azərbaycan ədəbiyyatına gətirdiyi yenilik elmi mühitin təsviri olub. Belə ki, onun "Təyyarə kölgəsi", "Vəfalım mənim" romanları bir növ elm adamlarının həyatına işıq tutub. O, 1980-ci illərin ikinci yarısında qələmə aldığı "Möcüzə" romanında isə dövrün mürəkkəb ictimai proseslərini diqqət mərkəzinə çəkib.

Yazıçı 1966-cı ildə ali təhsilini başa vurur və tərcüməçi kimi Əfqanıstana göndərilir. Burada dörd il fəaliyyət göstərir. Ölkədə baş verən hadisələri müşahidə edir. "İtkin gəlin", "Əfsanəsiz illər" və "Ayrılığın sonu yoxmuş" (trilogiya) romanlarını qələmə alır.

Müəllifin işıq üzü görən əsərləri sürətlə satılır və əldən-ələ gəzir. Geniş oxucu kütləsi arasında dərin marağa səbəb olur. Qeyd edilir ki, 1980-ci illərdə Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev pambıqçılıq rayonlarından birində olur. Hansısa kolxozun qabaqcıl pambıqçılıq briqadasına gedir. Pambıqçı qızlar onun ətrafına toplaşır. Ulu öndər o vaxt onlara ağır zəhmətləri üçün təşəkkür edir və soruşur:

– Bəlkə bir şeyə ehtiyacınız var. Maşına, mebelə... utanmayın, deyin! İstəyiniz yerinə yetiriləcək.

Pambıqçı qızlardan biri deyir:

– Heç nəyə ehtiyacım yoxdur. Ancaq bir istəyimiz var. Bu yaxınlarda yazıçı Əlibala Hacızadənin "İtkin gəlin" adlı kitabı çap olunub. Ondan bizim kənddə bircə nüsxə var. Onu növbə ilə oxuyuruq. Mümkünsə, deyin o kitabdan bir az çox çap etsinlər. Biz də alıb oxuya bilək.

Bu söhbətdən sonra qızların istəyi yerinə yetirilir. "İtkin gəlin" romanı iki dəfə (hər dəfə 100 min tirajla) çap olunur.

Əlibala Hacızadənin ədəbiyyatımıza gətirdiyi Əfsanə obrazı o illərin yaddaqalan obrazlarından olub. O, müsahibələrinin birində "Əfsanə həyatdan götürülən obrazdır, yoxsa təxəyyülünün məhsuludur" sualına belə cavab verib: "1966-cı ildə Əfqanıstana getdim. Onda Yazıçılar İttifaqının üzvü idim. 4 kitabım çap olunmuşdu. Oradakı insanlar da, həyat da mənim üçün təzə idi. "Qürbət hekayələri" silsiləsindən bir neçə hekayə yazdım. Sonra gördüm ki, bu hekayə çərçivəsinə sığmır. Düşündüm ki, bəlkə bir böyük əsər yazım. Süjetini qurdum, amma yaza bilmədim. Çünki bunun üçün bir təkan lazım idi. Bir gün Allah bu təkanı mənə qismət etdi. Bir gün maşınla Əfqanıstanın paytaxtı Kabil şəhərinin mərkəzi küçələrindən birində irəliləyirdik. Gördük dörd yol ayrıcında hərəkət dayanıb. Sürücüdən soruşdum ki, bax gör nə olub? Sürücü dedi ki, ağa, bir ora bax! Diqqət yetirdim və gördüm ki, ağ libaslı, son dərəcə gözəl bir qız şahanə yerişlə küçədə gedir. Elə hiss etdim ki, onun qara gözlərindən ütümə işıq seli axdı. O, çox gözəl idi. Üstündəki qiymətli daş-qaşlardan göründü ki, zəngin ailənin qızıdır. Başa düşdüm ki, küçənin hərəkəti onun gözəlliyinə görə dayanıb. O gözəlliyi gördəndən sonra Əfsanəni tapdım".



Yazıçının, xüsusilə, gənc oxucular tərəfindən maraqla qarşılanan əsərlərini o vaxt Xalq şairi Bəxtiyar Vahabzadə də oxuyur və bu barədə yazır: "Əlibala Hacızadə ədəbiyyatımıza nə gətirib? Onun əsərlərini oxudum, bu qənaətə gəldim ki, o bizim ədəbiyyatımıza-əsrimizə bir məişət psixologizmi gətirib. Bədii əsərdə obrazlar gərək o qədər təbii olsun ki, onların hərəkətlərinə oxucu təəccüb etməsin. Hər şey ona inandırıcı görünsün. Mən Əlibalanın romanlarında bu təbiiliyi görürəm. Yalnız öz millətini dərindən tanıyan, xalqın məişətinə, psixologiyasına, adət-ənənələrinə mükəmməl bələd olan yazıçı bu təbiiliyi qoruyub saxlaya bilər. Yazıçının birinci xüsusiyyəti odur ki, o, gərək öz xalqının Məcnunu olsun... Onu platonik məhəbbətlə sevsin. Nöqsanlarını görsün, onları dilinə gətirmək istəməsin. Bu mənada Əlibala Hacızadə öz xalqının əsl Məcnunudur".

Onu da qeyd edək ki, ədibin "İtkin gəlin" romanı əsasında yazdığı ssenariyə 1993–1994-cü illərdə 12 seriyalı bədii televiziya filmi çəkilib.

Əlibala Hacızadə bədii yaradıcılıqla yanaşı, AMEA-nın Şərqşünaslıq İnstitutunun elmi əməkdaşı kimi elmi-tədqiqatla da məşğul olub. "Fərruxi Yəzdinin poeziyası" əsəri ötən əsrin 60-cı illərinin sonunda işıq üzü görüb.

Görkəmli ədib həm də bir tərcüməçi kimi tanınıb. Fars dilindən tərcümə etdiyi "Quran"ın 30-cu surəsinin təfsiri", Jan Junyerin "Unudulmuş qəhrəmanlar", Əli Əkbər Vilayətinin "Səfəvilər dövründə İranın xarici siyasəti tarixindən" və başqa əsərləri misal çəkmək olar.

Əlibala Hacızadə şeirlər də yazıb, sözlərinə mahnılar bəstələnib. Məşhur "Nədəndir" mahnısı indi də dillər əzbərdir. Amma o özünü heç vaxt şair hesab etməyib.

Geniş oxucu sevgisi qazanan tanınmış yazıçı, tədqiqatçı alim Əlibala Hacızadə 8 oktyabr 2009-cu ildə vəfat edib.

**Savalan Fərəcov**

## Cavanşir Quliyevin erməni ifaçı tərəfindən oğurlanan mahnısı ilə bağlı hüquqları bərpa edilib

Azərbaycanın görkəmli bəstəkarı, Əməkdar incəsənət xadimi Cavanşir Quliyevin "Yarımgilə" mahnısının erməni ifaçı Minas Ovanesyan (Mino) tərəfindən mənimsənilməsi aradan qaldırılıb. Bu barədə Əqli Mülkiyyət Agentliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, musiqisi Azərbaycan bəstəkarı, Əməkdar incəsənət xadimi Cavanşir Quliyevə məxsus, sözləri bayatılardan ibarət olan "Yarımgilə" adlı mahnının sözləri erməni ifaçı Minas Ovanesyan (Mino) tərəfindən dəyişdirilərək "Xrovel e im yare" adı ilə ifa edilib və "Youtube" platformasında yerləşdirilib.

Bununla əlaqədar Əqli Mülkiyyət Agentliyi tərəfindən 2024-cü il 2 avqust tarixində geniş məlumat yayılıb və bu halın aradan qaldırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Bəstəkarın rəqəmsal şəbəkələrdə əmlak hüquqlarının idarəçiliyini həyata keçirən "Mikpro" MMC cəlb edilməklə həyata keçirilən tədbirlər nəticəsində Cavanşir Quliyevin müəllif hüquqlarının pozulmasına səbəb olan erməni ifaçı Minas Ovanesyanın (Mino) ifa etdiyi "Xrovel e im yare" adlı mahnı "Youtube" platformasında yerləşdirilmiş beş səhifədən silinib.

"Yarımgilə" adlı mahnının musiqisinin Cavanşir Quliyevə məxsusluğu, sözlərinin bayatılardan ibarət olması və erməni ifaçı Minas Ovanesyanın (Mino) tərəfindən bəstəkarın müəllif hüquqlarının pozulması "Youtube" rəhbərliyi tərəfindən öz təsdiqini tapıb və onun pozulmuş hüquqları bərpa edilib.

## Pressfakt

Azərbaycanda peşəkar sirk sənətinin yüz ildən çox tarixi var. İlk milli sirk truppası 1945-ci ildə yaradılmış, kollektivin "Azərbaycan toyu" adlı ilk proqramını bəstəkar Üzeyir Hacıbəyli hazırlamışdı. 1967-ci ildə Bakı Dövlət Sirkinin hazırkı binası (memarlar Ənvər İsmayılov, Faina Leontyeva) istifadəyə verilib. Orijinal memarlıq üslubu olan, imkanlarına görə keçmiş SSRİ-də ən müasir sirk binalarından sayılan tikili yarım əsrdən artıq istismardan sonra xeyli köhnəlib. Məlum olduğu kimi, Bakı Dövlət Sirki bir müddətdir zəruri texniki işlərlə əlaqədar fəaliyyətini müvəqqəti olaraq dayandırıb. Bu işlər yekunlaşandan sonra sirk qapılarını yenidən tamaşaçıların üzünə açacaq.

Hələliksə, 54 il əvvəl bu günlərdə Bakı sirkinin yeni mövsümünün açılması barədə mətbu xronikadan seçməni diqqətinizə təqdim edirik. Seçmədə dövrün orfoqrafiyası saxlanılıb.

# İllər öncə qəzetlər nədən yazırdı?

### Milli Kitabxananın dövri mətbuat arxivindən (23)




#### Sirk işıqlarını yandırdı

Avqustun 28-də sovet sirk səhnəsinin görkəmli ustalarından biri, RSFSR xalq artisti Yuri Nikulin və onun daimi yoldaşı, respublikanın əməkdar artisti Mixail Şuydin Bakı sirkində tamaşalara başlamışlar. Bakıda yeni sirk mövsümü bu istedadlı klounların qastrolları ilə açılmışdır.

Tamaşaçılar görkəmli gülüş ustalarının sirkdə çoxdan bəri klassik nömrə sayılan ağıllı klounadalarını, reprizlərini və bir çox başqa nömrələrini hərarətlə qarşılamışlar.

Sirkin müxtəlif janrlarında çıxış edən başqa artistlər də mövsümün birinci proqramında müvəffəqiyyət qazanmışlar. Məftil üzərində rəqs edən Roza Xusainovanın, kəndirbaz, Dağıstan MSSR əməkdar artisti Qurban Məcidovun, köhnə bakılılar sayılan RSFSR əməkdar artisti İnza Aqaronovanın və Georgi Aqaronovun orijinal nömrələrini, Uşakovların ikar oyunları truppasını tamaşaçılar alqışlarla qarşılamışlar.

Bakı sirkinin rejissoru Səyavuş Şəfiyev yeni mövsüm haqqında Azər.TA-nın müxbirinə demişdir:

– İndiki proqramdan əlavə bakılılar ən böyük sovet attraksionlarından birinə, Aleksandr Kornilovun rəhbərlik etdiyi "təlim almış fillər və rəqqasələr" attraksionuna baxacaqlar. Bu, çox təsirli səhnədir. Tamaşada solistlər sifəti ilə fillər çıxış edirlər.

Qarşıdakı mövsümün başlıca xüsusiyyəti bundan ibarətdir ki, qadınların çıxışına əsas yer verilir. Bakı manejində ilk dəfə olaraq məşhur "cəsarət küreşi" attraksionu göstəriləcəkdir. Attraksionun adından göründüyü kimi, sirkin qübbəsi altında başgicəlləndirici motosikl yürüşü keçirən N.Mayatskaya, doğrudan da, çox cəsarətlidir. Bundan sonra bakılılar Zinaida Tarasovanın rəhbərliyi altında rəngarəng illüziya tamaşasına baxacaqlar. SSRİ xalq artisti İrina Buqrimovanın bir qrup təlim almış şirlə çıxışı da olacaqdır.

Sirk mövsümü bakılılara yaxşı tanış olan Ermənistan SSR əməkdar artisti Stepan İsaakyanın heyvanlarla attraksionu və qaraçıların sirk ansamblının çıxışı ilə başa çatacaqdır.

*"Kommunist" qəzeti, 29 avqust 1970-ci il*

# İndi də adamları geyiminə görə qarşılayıb, ağlına görə yola salırlar?

## Otuz ilin teatr kostyumçusu ilə söhbət

Akademik Musiqili Teatrdayam. Nəzarətçiyə gəliş məqsədimi deyəndə yolu göstərdi. Liftlə dediyi mərtəbəyə qalxıb, uzun və yarıqaranlıq dəhlizlə irəlilədikcə xoş bir ətir mənə "bələdçi"lik etdi. Bir-iki addım atıb "Kostyum sexi" sözləri yazılmış iri qapının önündə dayandım. Qapını astadan döydüm. İçəridən bir neçə səs birdən "buyurun, gəlin" deyəndə sevindim. Lap mən deyən ortamdır: qadınlar məclisi...

Aynişan Məmmədova. Tanış olun, təzə qəhrəmanımdır. 62 yaşı var. Akademik Musiqili Teatrın kostyum sexinin rəisidir. 30 ildir burada çalışır. Ondan əvvəl makinaçı olub, bu teatra kostyumçu kimi gəlib. Elə o vaxtdan da illərini say-hesabını itirdiyi, amma yer-yurdunu, dolablardakı sıralamasını dəqiqliklə bildiyi paltarlar arasında keçirir.

Öncə bu sehrli aləmin onda yaratmış olduğu təəssüratı soruşdum. Üzündə qəribə, kövrək ifadə yarandı. Mənə elə gəldi ki, məcburi gülümsədi:

– Mənə teatr sahəsi həmişə maraqlı gəlirdi. Televiziyada tamaşalara baxandan sonra da o aləmdən qopa bilmirdim. Aktyorların həyatı, düşüncələri barədə xəyallar qururdum. Mənə görə, onlar çox fərqli, nağılvari bir həyat yaşayırdılar. Amma gəlib gördükdən sonra anladım ki, yanılmışam. Bizi güldürən, xoş anlara, fərqli duyğulara kökləyən adamların hər birinin dərdi-qayğısı, acılı-şirinli ömrü var. Mən diqqətli tamaşaçıyam həm də. Özü də bu teatra hələ 80-ci illərdən vurğunam. Əksər tamaşalarına baxdığımdan aktyor həyatinin çoxuna bələd idim. Bu maraq, bələdçilik və ən əsası da, kollektiv ilə dil tapmağım məni bura bağladı. Doğrudan da, teatr sehrli aləmdir. Adam ondan ayrıla bilmir. Baxın, məzuniyyət vaxtı hamı necə darıxır, necə qəribsəyir. Mövsüm açılan kimi də yaşlıdan gəncə hər kəsin çöhrəsində qəribə bir parıltı, gözlərində işıq şölələnir. Məncə, bu işıq teatrın özüdür. Bura mənim üçün hələ də sehrlidir, hələ də maraqlıdır.

*– Aynişan xanım, milli səhnəmizin bir çox populyar sənətçilərinin olduğu teatrda çalışırsınız. Ulduzların naz-qəmzəsi, tələb-təklifi də çox olur. Bundan yorulmursunuz?*

– Heç vaxt yorulmuram. Sadəcə, onu bilirəm ki, kimliyindən, xasiyyətindən asılı olmayaraq hər birini tamaşa, səhnə ovqatından ayırmamaq üçün nazlarına dözməliyik. Çünki onların fikri-zikri qalır səhnədə, oyunda, mizanda. Nəzərə alaq ki, aktyor səhnəyə çıxırsa, bütün qəlbi, ağlı ilə oradadır. Ani yayınma, hansısa texniki narahatlıq, sözsüz ki, əngəl ola bilər. Digər tərəfdən, istər mən, istər gördüyünüz bu xanımlar illərdir bir yerdə çalışdığımızdan həm bir-birimizin, həm də aktyorların, necə deyərlər, dilini tutmuşuq, hal-xasiyyətlərinə də yaxşı bələdik.

*– Yəqin ən sadə və ən mürəkkəbini, yaxud öz aranızda, ulduz xəstəsindən sadəlik nümunəsinə bölgüsünü də etmisiniz...*

– Məni provokasiyaya çəkməyin (gülürük).

Qısa dialoqdan sonra bizə diqqət kəsilən xanımlar öz aralarında işarə dili ilə kimlərisə qeydə çalışsalar da, rəisləri allanmış yanaqlarının çəkilməsi ilə bir az da qıyılan gözləriylə onlara "yeri deyil" işarəsi verib söhbəti ustalıqla dəyişir.

Mən də bu "məsləhət"ə asanlıqla uyuram. Daha doğrusu, uyduğumu göstərirəm.

Ondan səhnə, sənət adamlarının iş prosesindəki özəl istəklərini xəbər alıram. Bir də illər əvvəlki səhnə insanları ilə yeni nəslin müqayisəsini soruşuram.

Köks ötürdü, artıq dünyasını dəyişmiş bir neçə səhnə xadimimizi sevgi ilə xatırladı:

– Ofeliya Aslanla səmimi münasibətimiz vardı. Son olaraq "Bankir adaxlı" tamaşasında oynadı. Rəhmətlik Xanım Qafarova ilə uzun müddət işləmişəm. Gözəl insan idi. Sakit təbiəti vardı. Səhnəyə çıxanda da, həyatda da çox sadə, nəzakətli idi. İstər onun, istərsə də Ofeliya xanımın ölümü ilə hələ də barışa bilmirəm. Sarsıntım uzun müddət keçmədi.

Sonra Hacıbaba Bağırovun, Xanım Qafarovanın, eləcə də dünyasını dəyişmiş bir neçə aktyorun geyimlərini göstərdi. Onları xatirə kimi, dəyərli eksponat kimi saxladıqlarını dedi.



X.Qafarovanın paltarlarına əl çəkərək "Geyimlər sahibinin energetikasını özündə saxlayır. Nə bilim, mən də bu hiss ilə yanaşıram onun geyimlərinə. Onu çox istəmişəm. Məncə, elə o da məni" deməsi mənim də duyğularıma sığal çəkdi.

Bir müddət susdu. Kövrəldi. Yaşaran gözləri məni sualın peşmançılığına aparmamış tez sözü dəyişdim.

*– İndi də adamları geyiminə görə qarşılayıb, ağlına görə yola salırlar?*

– Geyimi göstərici saymaq indi lap çətindir. Teatra, səhnəyə gəlincə, paltarlar səhnəyə tamaşadan bir saat öncə gedir. Kostyumçular paltarları seçir, ütüləyir və hər birini aktyorların qrim otaqlarına aparırlar. Əgər tamaşada geyimi dəyişmək məqamları varsa, onlar da bir saat öncədən kulislərə qoyulur. Geyimçilərimiz də yanlarında olub onlara kömək edirlər.

*– Kulisdə geyim dəyişilən zaman, sözsüz ki, saniyələrlə yarışılır. Gözlənilməz hadisələr də olur yəqin...*

– Eh, o qədər. Məsələn, keçən dəfə "O olmasın, bu olsun"da aktyor ayaqqabını geyinən kimi dabanı qopdu. Tələsik başqa birini verdik. Eləcə də geyimdə, aksesuarda hər hansı naxoş hal yaranarsa, alternativimiz daim olur.

*– Bayaqdan sexə göz gəzdirirəm. Yəqin korifeylərin geyimləri qorunan dolabınız var. Məsələn, Nəsibə Zeynalovanın hansı səhnə geyimini saxlamısınız?*

– İllər əvvəl var idi və sevə-sevə qoruyurduq. Sonra onları Dövlət Teatr Muzeyinə verdik. Orada eksponat kimi qorunsa, daha yaxşı olar deyə.

*– Teatra mərhum Hacıbaba Bağırovun zamanında gəlmisiniz. Həyatda da səhnədə olduğu kimi idi?*

– Rəhbər kimi də, insan kimi də çox başqa idi və hamımız onu çox istəyirdik.

*– Görürəm, indi şəraitiniz yaxşıdır. Amma illər əvvəl belə olmayıb...*

– Teatrda əsaslı təmirdən öncə üç sex bir yerdə otururduq. O zamanlar elə hallar yaşanırdı ki, az qalırdım baş götürüb gedim. Hətta bir dəfə qəti qərar verdim də. Keçmiş direktor müavinimiz Elxan dedi ki, səbirli ol, təmir bitsin hər şey yoluna düşəcək. Öz kabinetin olacaq. Oldu da. İndi çox gözəl, geniş, rahat otaqlarımız var. Qalır işləmək.

*– Teatr intriqalarsız ötüşmür, bu məlumdur. Səhnədəkilər daha çox intriqant olurlar, yoxsa səhnə arxasındakılar?*

– Çalışıram söz-söhbətdən uzaq olum. Hətta bəzən əməkdaşların işləri çətinə düşəndə məni verirlər qabağa (gülür). Yola gedən adamam.

*– Yola verir, yoxsa yola gedirsiz?*

– Hər ikisi. Başqa çarəm var? (gülür). Axı səhnə adamları həm də çox həssas olurlar. Bizim də vəzifəmiz onları yola verməkdir. Bir də görürsən, geyimçilər baş alıb gəldilər ki, bəs gəlin, filankəs filan dedi. Gedirəm, həll olunur. Dil tapıram və hər zaman da sülhsevərliyim dadıma çatır. Bir də, deyilənə görə, gülər üzüm.

*– Zamanla bu iş adamı peşəkara çevirir, yoxsa mexaniki icraçıya?*

– Əsas işini sevməkdir. Sevməsəydim, bu qədər ili burada keçirməzdim.

*– Repertuarın işlək, bir də gahda-güzarda oynanılan tamaşaları var. Təsadüfən oynanılan tamaşaların geyimləri də əzbər sıralanıb beyninizdə?*

– Nə bildiniz? Vallah, elədir. Qəribəsi budur ki, arada yatanda da yuxumda bu sexi, paltarları görürəm. İndi soruşsanız ki, hansı geyim neçənci asılqandadır, o an deyəcəm. Bəzən evdə oluram, zəng edib hansısa geyimi soruşurlar. Gözüyumulu deyirəm. Çünki hamısını səliqə ilə, öz yerində asırıq.

*– Heç səhnəyə çıxmaq, o parlaq işıqlar altında dayanmaq kimi çılğın arzunuz olub?*

– Yox, heç vaxt. Teatrı sevirəm, amma təbiətim, utancaqlığım buna mane olub.

*– Aynişan xanım, daha keçib, bunu da deyin: teatrınız aktyorları səhnədə daha çox obrazda olurlar, yoxsa həyatda?*

– Hərəsində bir cürdür. Amma məncə, aktyor elə səhnədə aktyor olsa, yaxşıdır.

*– Geyimlər hər tamaşadan sonra təmizlənib, yuyulmaya gedir?*

– Baxır hansı paltarlar. Məsələn, ağ köynəklər hə. Amma parlaq, işlənməli geyimlər az-az.

*– Tamaşada dublyorlar olur. Onların paltarları da başqadır?*

– Ölçüləri uyğun olarsa, eyni.

*– Hə, yəqin "onun geyindiyini mən geyinmərəm" söhbətləri də olur.*

– Olanda olur (gülür).

Söhbətin bu məqamında sexin işçiləri də bizə qoşuldular. Aktyorlar arasındakı irili-xırdalı dartışmaların gəlib bu kimi münasibətlərin başında "çatlamasından" da danışdıq. Hal-xasiyyətlərinə görə o paltarların gecəylə yuyub-ütüləyib hazır qoyduqlarını da dedilər.

*– Sizin teatrın priması, sözsüz ki, hazırda Xalq artisti Afaq Bəşirqızıdır. Onunla yola getmək çətindir, yoxsa?...*

– Afaq xanımla qızım işləyir, digər Xalq artistimiz İlham Namiq Kamal ilə mən.

*– Anlamadım, hər Xalq artistinin öz kostyumçusu var?*

– Belə bölgü etmişik də illərdir. Onu da deyim ki, sağ olsunlar, hər ikisi sadə, mehriban, səbirlidir. Vallah, onların yaşına, təcrübəsinə, məşhurluğuna baxanda xasiyyətləri yeni nəsildən daha başqadır.

Sonra birgə gəzə-gəzə Afaq xanım üçün ayrılmış asılqanlara yaxınlaşdıq. Hər obraza aid geyimlərini bir-bir sadaladı. Ardınca keçdi İlham müəllimin səhnə geyimlərinə. Sözarası dedi ki, onlar həm də özlərinə qarşı çox tələbkardırlar. Tamaşaçı qarşısındakı məsuliyyətlərinə görə hər xırda detalı belə diqqətdə saxlayırlar. Tamaşadan xeyli əvvəl qrim otaqlarında olur, replikalarını gözdən keçirir. Bir növ özlərini tamaşaya saatlar əvvəldən hazırlayırlar.

Sözü dağa-daşa salandan sonra Aynişan xanımdan istədiyim cavabı da almış oldum. Deyir Xalq artistləri, populyarlar nə qədər sadə, mehribandırlarsa, bəzi yenilər, kütləvi tamaşaçıya elə də tanış olmayanlar bir o qədər nazlı, hətta hikkəli olurlar. Yaşlı nəsil hər bir işin yönünü bilir. Təcrübələri çoxdur. Ona görə də onlarda problem yaranmır.

Sonra da əlavə edir ki, həyatda da, teatrda da gərək söz-söhbətdən uzaq durmağı bacarasan, necə deyərlər, bir gözün kor, bir qulağın kar olsun. Bir də səhnə elə yerdir ki, adamları doğmalaşdırır, illərlə ailə kimi olursan.

Bu son sözü elə əmin dedi ki, etiraz eləməyə çalışdım.

*– Aynişan xanım, ya da buna məcbur olursan.*

– O da olur, bu da. Amma baxın, burada çalışan qadınlarla illərlə elə qaynayıb-qarışıb, elə doğmalaşmışıq ki, hər sirrimizi bölüb, hər dərdimizə həmdərd ola bilirik.

*– Baxıram, çox sadə geyimdəsiniz. Teatrın dəbdəbəsi sizə sirayət eləməyib?*

– Qadın kimi də daim sadəliyə üstünlük vermişəm. Səhnə adamı deyiləm, axı. Mən, sadəcə, təmizliyə, səliqəyə önəm verirəm. Özümə də, geyimçilərimizə də qoyduğum yeganə tələb təmizlik, səliqə-sahmandır. Qalan o işıltı, dəbdəbə, bər-bəzək aktyora, səhnə adamına yaraşır.

*– Heç ürəyinizdən bax bu gördüyümüz al-əlvan paltarları geyinmək, ən azı bu sexin içində gəzib süzdürmək keçməyib?*

– Bu barədə bir az vasvası adamam. Nə başqasının paltarını geyinmərəm, nə də öz paltarımı kiməsə vermərəm.

*– Ola bilməz ki, ütüləyən zaman paltar yanmasın.*

– Hə, yadıma salmayın, indi də həyəcan basır. Olub belə hallar. Amma sağ olsun seximiz, eləcə də tikiş sexi, həll edir. Bəzən də biz ona başqa geyim verib həll etməyə çalışırıq. Teatrın geyiminin yanması heç. Amma elə olub ki, aktrisanın tamaşa üçün gətirdiyi şəxsi geyim yansın. İndi gəl çıx da bu yükün altından. Yadımdadır, rus bölməsində Larisa Vinoqradovanın bahalı, tüldən olan bir paltarı vardı. Gətirdi ki, tamaşada geyinsin. Biz də cüzi qırışlarını açmaq üçün ütünü yandırdıq. Elə yapışması ilə yanmağı bir oldu.

*– Yəqin sizə qəzəblənib. Üstəlik təzəsini də aldırıb.*

– Yox, aldırmadı. Amma qəzəblənməyə haqqı var idi (gülür).

*– Şəxsi paltarlar sexdə qalır, yoxsa hər tamaşadan sonra aparılır. Bildiyim qədər, bir neçə aktrisanız var ki, tamaşada öz geyimlərinə üstünlük verirlər.*

– Əslində, tamaşanın paltarını geyinməlidirlər və biz də otağa əvvəldən tamaşa üçün tikilmiş geyimi qoyuruq. Amma əgər öz paltarını gətirib, onu geyinməklə bağlı müvafiq razılıq alırsa, artıq o geyimə biz toxunmuruq. Yəni teatr ona paltar verib. İstəmirsə, bu, başqa.

Sexin qadın əməkdaşı, mənə görə yumor hissi daha qabarıq Nadilə xanım da mütəmadi söhbətimizə rəng qatdı. Sonra balet, ayaqqabı və baş geyimlərinin saxlandığı otaqları dolaşdıq.

Hər üç məkanda məni cəlb edən sözsüz ki, ilk növbədə, təmizlik, geyimlərdən gələn xoş ətir və onları belə təravətli saxlayan əməkdaşların çöhrələrinə hakim təbəssüm idi. Qısa müzakirə növbəti sualı meydana çıxardı:

*– Aktyorlar ünsiyyətə meyillidirlər?*

– Eləsi də var, beləsi də. Amma mən hər adamla asanlıqla ünsiyyətə girib, ürəyimə elə də yaxın buraxmıram.

*– Niyə? Bəlkə sənət adamları sizə görə etibarsızdırlar?*

– Yox, elə deməzdim. Mən, sadəcə, öz yerimi bilirəm, məsafəmi saxlayıram. Yəqin uzun müddət bir yerdə səs-səmirsiz çalışmağımın bir səbəbi də budur. Yəni söz-sovdan qaçmağım. Çox şey görüb, çox şeylər eşitmişəm. Amma ürək süfrə deyil ki, hər kəsə açıla.

*– Yaxşı, gəlin bir gülməli xatirənizi də bölüşün, söhbəti yekunlaşdıraq.*

– İndi yadıma düşəndə həm gülürəm, həm də utanıram. Təzə işlədiyim vaxtlar idi. Kişi aktyorlardan biri "Köynəyimin düyməsi qırılıb" deyib tikmək üçün düyməni mənə uzatdı. Tamaşa gedir, indi o da öz mizanına uyğun səhnəyə çıxmalıdır. Utandım, bilmədim nə edim. İynə-sapı uzadıb "Alın, özünüz tikin, ya da gedin köynəyi çıxarın, tikim" dedim. Təəccüblə üzümə baxdı və düyməni birtəhər özü tikdi. Amma sonralar bu utancaqlığım keçdi. İşə alışdım.

*– Alışdığınız, sevdiyiniz bu iş sizə nə qazandırdı? 30 il az vaxt deyil.*

– Çox şey verdi, çox mətləblərdən hali etdi. Mən burada yox, başqa yerdə çalışsaydım, belə uzun yaşamazdım. Teatr mənə azadlıq, ruhən sərbəstlik, özünəinam verdi. Ruhumu gənc saxladı.

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 28 – 30 avqust

### Azərbaycan

**28 avqust 1935** – Tanınmış yazıçı, şərqşünas Əlibala Qüdrət oğlu Hacızadə (1935 – 9.10.2009) Biləsuvar rayonunun Ağalıkənd kəndində doğulub. "İtkin gəlin", "Əfsanəsiz illər", "Ayrılığın sonu yoxmuş", "Təyyarə kölgəsi", "Vəfalım mənim" və s. əsərləri geniş oxucu rəğbəti qazanıb.

**28 avqust 1948** – Musiqişünas, sənətşünaslıq doktoru, professor Elxan Əlisəttar oğlu Babayev (1948 – 2.2.2003) anadan olub.

**28 avqust 1984** – Xalq artisti, tanınmış müğənni Rübabə Xəlil qızı Muradova (22.3.1933 – 1984) vəfat edib. Akademik Opera və Balet Teatrının solisti olub. Əsas partiyaları: Leyli ("Leylı və Məcnun"), Ərəbzəngi ("Şah İsmayıl") və s.

**29 avqust 1890** – Şair, qəzəlxan Məhəmmədəli Şəfai (1890–1967) Bakının Maştağa kəndində anadan olub.

**29 avqust 1929** – Tanınmış rəngkar Fərhad İbrahim oğlu Hacıyev (1929 – 17.12.1987) Şamaxıda doğulub. "Bakı ritmləri", "Kəpəz" və b. tabloların müəllifidir. Azərbaycanda bərpa rəssamlığının əsasını qoyub, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin rəhbəri (1981–1987) olub.

**29 avqust 1960** – Telejurnalist, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Fuad oğlu Mustafayev (1960 – 15.06.1992) anadan olub.

**29 avqust 1965** – Məşhur tarzən, Xalq artisti Qurban Bəxşəli oğlu Pirimov (30.10.1880 – 1965) vəfat edib. 1920-ci ildən Opera və Balet Teatrının solisti olub.

**30 avqust 1946** – Xalq artisti, tanınmış radio diktoru Qarasim Əbdülhəsən oğlu Tağızadə (1946 – 4.3.2018) Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub. Azərbaycan Radiosunun diktorlar şöbəsinə rəhbərlik edib.

**30 avqust 1996** – Bakıda, Respublika Sarayında görkəmli şair Əliağa Vahidin 100 illiyinə həsr olunmuş təntənəli gecə keçirilib. Prezident Heydər Əliyev yubiley mərasimində iştirak edib.

**30 avqust 2000** – Tanınmış şair, publisist Şahmar Əkbər oğlu Əkbərzadə (28.12.1941 – 2000) vəfat edib. "Mədəniyyət" qəzetinin ilk baş redaktoru (1991–2000) olub. Kitabları: "Sevgi borc verilməz", "Ona yanıram ki", "Haqqa pəncərə" və s.

### Dünya

**28 avqust 1749** – Alman şairi, yazıçı-dramaturq Yohann Volfqanq Höte (Johann Wolfgang von Goethe; 1749 – 22.3.1832) anadan olub. Əsərləri: "Faust" mənzum tragediyası, "Vilhelm Meysterin təhsil illəri", "Gənc Verterin iztirabları" romanları, "İfigeniya", "Torkvato Tasso" dramları və s.

**28 avqust 1867** – İtaliya bəstəkarı Umberto Cordano (Umberto Menotti Maria Giordano; 1867–1948) anadan olub. Operaları: "Andre Şenye", "Fedora", "Sibir", "Madam Sen-Jen" və s.

**28 avqust 1925** – Yəhudi əsilli Rusiya yazıçısı Arkadi Natanoviç Struqatski (1925–1991) anadan olub. Qardaşı Boris Struqatski (1933–2012) ilə birgə yazdıqları fantastik əsərlərlə tanınıb.

**29 avqust 1862** – Belçika yazıçı-dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1911) Moris Meterlink (Maurice Polydore Marie Bernard Maeterlinck; 1862–1949) anadan olub. Əsərləri: "Göy quş", "Beatris bacı" (pyeslər), "Güllərin idrakı", "Arıların həyatı" (fəlsəfi pritçalar) və s.

**29 avqust 1903** – Məşhur rus aktyoru Andrey Fayt (1903–1976) anadan olub. "Azərbaycanfilm"də lentə alınan "Uzaq sahillərdə", "Bir qalanın sirri" filmlərində çəkilib.

**29 avqust 1915** – İsveç aktrisası, üç dəfə "Oskar" laureatı İngrid Berqman (Ingrid Bergman; 1915 – 29.8.1982) anadan olub. Filmləri: "Anastasiya", "Şərq ekspresində qətl", "Qaz işığı" və s.

**29 avqust 1920** – Amerika caz musiqiçisi Çarli Parker (Charlie "Bird" Parker; 1920–1955) anadan olub.

**29 avqust 1958** – Dünyaşöhrətli amerikalı müğənni Maykl Cekson (Michael Joseph Jackson; 1958–2009) anadan olub.

**30 avqust 1748** – Fransız rəssamı Jak Lui David (Jacques-Louis David; 1748–1825) anadan olub. Məşhur rəsmləri: "Maratın ölümü", "Horasilərin andı".

**30 avqust 1860** – Rus rəssamı İsaak İliç Levitan (1860–1900) anadan olub. Peyzaj ustası kimi tanınıb.

**Hazırladı: V.Orxan**

# Laçın Şəhəri Gününə həsr olunmuş kitab sərgiləri

Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "26 avqust – Laçın Şəhəri Günü" adlı virtual və eyniadlı ənənəvi sərgi hazırlanıb.




Kitabxanadan bildirilib ki, təqdim olunan sərgilərdə rəsmi sənədlər, fotolar, Laçın şəhəri haqqında, eləcə də Vətən müharibəsi və Böyük Zəfəri əks etdirən Milli Kitabxananın fondunda mühafizə olunan kitablar, məqalələr və s. materiallar Azərbaycan, rus, ingilis dillərində nümayiş olunur.

Virtual sərgi ilə http://anl.az/el/vsb/26_avqust_Lachin/index.htm linkindən istifadə edərək tanış ola bilərsiniz.

Ənənəvi sərgi bir həftə davam edəcək.

# Müəllimlərin işə qəbulu üzrə müsabiqənin nəticələri elan olunub

Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən musiqi, incəsənət məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin yekun nəticələri elan olunub.

Müsahibələrdə 237 namizəd keçid balını toplayıb, onlardan 123 nəfərin müəllim vəzifəsinə təyinatları ilə bağlı qərar qəbul edilib.

Bu ilin iyun ayında Dövlət İmtahan Mərkəzi ilə birgə müəllimlərin işə qəbulu üzrə müsabiqənin test mərhələsi keçirilib. Test imtahanında iştirak edən 856 nəfərdən 317-si tələb olunan keçid balını toplayaraq müsahibə mərhələsində iştirak hüququ qazanıb. 5-8 avqust tarixlərində keçirilən müsahibə mərhələsində isə 300-ə yaxın namizəd iştirak edib.

Musiqi, incəsənət məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə müsabiqədən müvəffəqiyyətlə keçərək təyinat almış namizədlər 5 sentyabr 2024-cü il tarixinədək aidiyyəti təhsil müəssisələrində qeydiyyatdan keçməli və işə qəbul üçün zəruri olan sənədləri təqdim etməlidirlər. Ehtiyat kadrlar siyahısına daxil edilmiş namizədlər növbəti yerləşdirmədə vakansiya seçimində iştirak edə bilərlər. Növbəti yerləşdirmənin tarixi barədə Mədəniyyət Nazirliyinin informasiya resurslarında əlavə məlumat veriləcək.

Qeyd edək ki, Mədəniyyət Nazirliyi sistemində fəaliyyət göstərən musiqi və incəsənət məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı sistemli islahat həyata keçirilir. Bu il ilk dəfə olaraq təşkil edilən şagird və müəllimlərin işə qəbulunun vahid elektron sistem üzərindən aparılması, təhsilin məzmunu ilə bağlı yeniliklər, məktəb şəbəkəsinin optimallaşdırılması mədəniyyət təhsili müəssisələrinin daha harmonik inkişafına hesablanıb.

# Səmərqənddə növbəti "Şərq tərənələri"

## Beynəlxalq festivalda 80-dək ölkə təmsil olunur

26-30 avqust tarixlərində Özbəkistanın Səmərqənd şəhərində XIII "Şərq tərənələri" Beynəlxalq Musiqi Festivalı keçirilir. Mərkəzi Asiyanın ən böyük incəsənət layihələrindən olan festival UNESCO və ICESCO-nun himayəsi ilə gerçəkləşir.

Festivalın məqsədi milli musiqi sənətindəki nailiyyətləri, eləcə də xalqların mədəniyyətini və adət-ənənələrini tanıtmaq və inkişaf etdirmək, musiqi və xanəndəlik sahəsində istedadlı gənclərə dəstək olmaq, beynəlxalq yaradıcı əlaqələr qurmaq, sülh, dostluq və qarşılıqlı tolerantlıq ideyalarını təbliğ etməkdir.

1997-ci ildə əsası qoyulan festivalda indiyədək ümumilikdə 75 ölkədən musiqi kollektivləri və ifaçılar iştirak edib.

Sayca 13-cü festivala 80-ə yaxın ölkədən 300-dən çox nümayəndə qatılıb.

Budəfəki festivalda Azərbaycanı tanınmış xanəndə, respublika və beynəlxalq müsabiqələr laureatı Mirələm Mirələmov



təmsil edir. Onun ifalarını instrumental heyət – Zəki Vəliyev (tar), Elnur Mikayılov (kamança), Kamran Kərimov (nağara), İdris Hüseynov (ud) və Anar Vəlizadə (balaban) müşayiət edəcək.

Avqustun 26-da Səmərqənddə festivalın təntənəli açılış mərasimi olub.

Festival çərçivəsində avqustun 27-28-də "Şərq xalqlarının musiqi mədəniyyəti: qloballaşma prosesində yaradıcılıq harmoniya prinsipləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans da keçirilir.

Festival iştirakçılarının beynəlxalq münsiflər heyəti qarşısında çıxışları üç gün (27-29 avqust) sürəcək. Qiymətləndirmə zamanı iştirakçının ifa səviyyəsi və mahnılarla bərabər, mahnı sözlərinin (şeirlərin) ahəng və məzmunu, iştirakçının geyim mədəniyyəti və səhnə davranışı kimi meyarlar da nəzər alınacaq.

Müsabiqənin baş mükafatı (Qran-pri) 10 000 dollar təşkil edir. 1-ci, 2-ci və 3-cü yerlər üçün müvafiq olaraq 10 000, 7000 və 6000 dollar pul mükafatı nəzərdə tutulur. Bundan əlavə, "Ən gənc iştirakçı", "Tamaşaçıların seçdiyi ən yaxşı iştirakçı", "Ən yaxşı instrumental ifaçı" nominasiyaları üzrə də mükafatlar veriləcək.

"Şərq tərənələri" festivalı iki ildən bir keçirilir. Ölkəmizdən xanəndə Simarə İmanova ilk festivalda (1997) və tarzən Sahib Paşazadə XI festivalda (2017) Qran-pri mükafatına layiq görülüblər. Müxtəlif illərdə ölkəmizdən bir neçə musiqiçi də festivalın mükafatçısı olub.

# Kürənlər festivalı

Minlərlə insan ötən həftəsonu Niderlandda qırmızı saç rəngini qeyd etmək üçün Tilburq şəhərində keçirilən ənənəvi "Redhead Days" festivalına toplaşıb.



Festivala müxtəlif ölkələrdən fotosessiyalar, görüşlər və müxtəlif ustad dərslərində iştirak etmək üçün qeydiyyatdan keçən 10 mindən çox insan qoşulub.

Festivalın yaranması 2005-ci ildə gənc niderlandlı həvəskar rəssam Bart Ruvenhorstun sərgi hazırladığı və bir sıra portretlər üçün qırmızı saçlı modelləri reklam etdiyi zamana təsadüf edir. Yerli "Brabants Dagblad" qəzetindəki elanın köməyi ilə o, 150 modeldən müsbət cavab alıb. Onlardan imtina etmək çətin olduğu üçün o bütün modellərə kollektiv şəkil çəkdirməyi təklif edib.

Bundan sonra bir çox kürənlər Bartdan ikinci görüş təşkil etməyi xahiş edib, bu da sonradan festivala çevrilib. İndi o, festivalın direktorudur.

2013-cü ildə təbii qırmızı saçlı insanların ən böyük toplantısının (1672 nəfər) qrup şəkli "Ginnesin rekordlar kitabı"na düşüb. O vaxtdan da festival ənənəvi olaraq qrup şəklinin çəkdirilməsi ilə başa çatır.

# Oğru kitab həvəskarı olanda...

Romada mənzilə oğurluğa gələn şəxs həm də bərk mütaliəçi imiş. Yunan mifologiyası haqqında kitaba marağı bu dəfə onu həbsə götürüb.

"Wanted in Rome" nəşri yazır ki, mənzilin 71 yaşlı sahibi yuxudan oyananda tanımadığı bir kişinin çarpayıda oturub qədim mifologiyaya dair kitab oxuduğunu görüb. 38 yaşlı italyan açıq eyvandan bu mənzilə girib və onu qarət etmək istəsə də, əvvəlcə diqqətini kitablar çəkib.

Mənzil sahibi polisə müraciət edib və oğru cinayət başında yaxalanıb. Yaxalandığı zaman onun çantasından həmin gecə başqa bir mənzildən oğurladığı dizayner əşyaları da tapılıb.

Oğrunu bu qədər ovsunlayan kitab isə Covanni Nuccinin "İliada" eposu haqqında tədqiqatı olub. Müəllif "İliada"nı tanrılar nöqteyi-nəzərindən araşdırır və müasir hadisələri məşhur qədim epos prizmasından dərk etməyi təklif edir.

C.Nucci kitabı ilə bağlı bu xəbərdən çox məmnun olduğunu söyləyib. İndi yazıçı oğrunu tapıb ona bir nüsxə vermək istəyir ki, kitabı axıra qədər oxusun.

# 2492 karat – dünyanın ikinci böyük almazı

Kanadanın "Lucara Diamond" korporasiyası Botsvanadakı (Cənubi Afrika) Karove mədənindən 2492 karatlıq (498,8 qram) almaz çıxarıb. Yumruq boyda qiymətli daşı ölkə prezidenti Mokgvitsi Masin dünyaya nümayiş etdirib.



"Lucara Diamond Corp"un məlumatında bildirilir ki, almaz zədələnməmiş vəziyyətdədir. O, böyük almazların axtarışı üçün nəzərdə tutulmuş rentgen texnologiyasından istifadə edilərək aşkar edilib.

Məlumata görə, bu, indiyədək ölçüsünə görə dünyada tapılan ikinci ən böyük almazdır. Ən böyük almaz – 3106 karat ağırlığında "Cullinan" Cənubi Afrikada təxminən 120 il əvvəl tapılmışdı.

Karove yatağı qiymətli daşları ilə məşhurdur. 2015-ci ildə "Lucara Diamond Corp" burada o zaman dünyada ikinci ən böyük almaz olan "Lesedi La Rona"nı (1109 karat) aşkarlayıb. O, 53 milyon dollara satılıb. Yenə həmin yataqdan çıxarılan 813 karatlıq almaz rekord qiymətə – 63 milyon dollara alıcı tapıb.

Yeni almazın keyfiyyəti hələ müəyyən edilməyib. Onun real qiyməti də bundan sonra bəlli olacaq.

# Fransız "qonaqpərvərliyi" – Durov Parisə şam yeməyinə gəlibmiş

Rusiyalı milyarder, "Telegram" sosial media platformasının qurucusu və baş direktoru, bir neçə il əvvəl Fransa vətəndaşlığı almış Pavel Durov Parisdə həbs olunub. Durov avqustun 24-də yerli vaxtla 20:00 radələrində şəxsi təyyarəsi ilə Le Burje hava limanına endikdən sonra saxlanılıb.



Dünya mediasının əsas gündəm mövzularından olan xəbərlərə görə, Durova qarşı terror, narkotik ticarəti, dələduzluq və çirkli pulların yuyulması, daha doğrusu, bütün bunların "Telegram" platforması üzərindən həyata keçirilməsi ilə bağlı ittihamlar irəli sürülə bilər. Fransa hakimiyyətinin ondan əsas narazılığı isə messencerdə bütün mesajların şifrələnməsi və "Telegram" sahibinin bu mesajları Fransa xüsusi xidmət orqanları ilə paylaşmaq istəməməsidir.

Məlumatlara görə, Durovun təyyarəsi Parisə Bakıdan uçub. Onun bir neçə gün Azərbaycanda olduğu, hətta buraya Rusiya Prezidenti Vladimir Putinlə (18-19 avqustda Bakıya dövlət səfəri edib) görüşmək niyyətilə gəldiyi bildirilir. Lakin Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Bakıda belə bir görüşün olmadığını deyib. Ümumiyyətlə, Rusiya rəsmi dairələrinin Durovun saxlanılması ilə bağlı xəbərlərdə zahirən məsafəli davrandığı hiss olunur. Çünki formal olaraq Durov bu ölkənin vətəndaşı deyil. Bununla belə, dünyanın aparıcı (və rusiyalıların da kütləvi şəkildə istifadə etdiyi) sosial media platformalarından birinin rusiyalı sahibinin həbsinə Moskvanın biganə qalması ağlabatan deyil.

Durovun ətrafından yayılan məlumatlara görə, o, Parisdə yolüstü dayanıb. Guya orada şam etdikdən sonra və bir gecə qaldıqdan sonra Parisdən gedəcəkmiş. Xatırladaq ki, Durov son illər Birləşmiş Ərəb Əmirliklərində yaşayırdı, "Telegram"ın baş ofisi də Dubayda yerləşir.

"Telegram" komandası Pavel Durovun Fransada saxlanılmasına münasibət bildirib. Məlumatda "Telegram"ın və ya onun sahibinin platformada sui-istifadələrə görə məsuliyyət daşıdığı barədə iddiaların absurd olduğu vurğulanır. Həmçinin bildirilir ki, "Telegram"ın fəaliyyəti, dezinformasiya və qeyri-qanuni məzmunla mübarizə üçün ciddi qaydalar təmin edən Rəqəmsal Xidmətlər Aktı daxil olmaqla, Avropa İttifaqının qanunlarına uyğundur, onun moderasiyası (mesaj-yazışmalara tətbiq edilən tələblər) sektorun standartlarına cavab verir.

Qeyd edək ki, 1 milyarda yaxın istifadəçisi olan "Telegram" keçmiş Sovet İttifaqı respublikalarında xüsusilə geniş yayılıb. O, "Facebook", "X" ("Tvitter"), "YouTube", "WhatsApp", "Instagram", "TikTok"dan sonra əsas sosial media platformalarından biri hesab olunur.

Bundan öncə Rusiyada "VKontakte" platformasının sahibi olan Durov hökumətin müəyyən təzyiqlərindən sonra onu sataraq 2014-cü ildə ölkəsini tərk edib və qardaşı ilə birlikdə "Telegram"ı yaradıb. Daha sonra RF vətəndaşlığından da çıxıb. "Forbes"in məlumatına görə, onun 15 milyard dollara yaxın varidatı var.

# Avstraliyada vəhşi atlar güllələnir, dəvələr isə hörmətə minib



Ötən ildən başlayaraq Avstraliya Milli Parkında olan vəhşi atların güllələnməsinə icazə verilib. Yeni Cənubi Uels əyalətinin Ali Məhkəməsi heyvanların rifahı ilə məşğul olan təşkilatın iddiasını rədd edən qərar çıxarıb.

Bunun səbəbi Avstraliyadakı parkda "brumbi" adlanan vəhşi atların həddindən artıq olmasıdır. Məlumata görə, onların sayı təxminən 22 minə yaxındır. Ekoloji nöqteyi-nəzərdən atlar Milli parkın tarazlığını və bataqlıq ərazilərini təhdid edir, habelə yerli at növlərini sıxışdırır.

Ekologiya Nazirliyi Milli Parklar və Vəhşi Təbiət Xidməti tərəfindən 2027-ci ilə qədər brumbilərin sayının 3 minə endirilməsinə qərar verib. Vəhşi atların bir qisminin başqa ərazilərə köçürülməsi də planlaşdırılır.

Heyvanların əhəmiyyətli bir hissəsi onların helikopterlərdən vurulması nəticəsində ölür. Heyvan haqları müdafiəçiləri isə buna qarşı məhkəmə iddiası qaldırıb. Onlar atların güllələnməsini heyvanlara qarşı amansızlıq aktı olduğunu bildiriblər. Lakin üçgünlük dinləmədən sonra məhkəmə Ekologiya Nazirliyini haqlı sayıb. Qərarda ölkə üçün "heyvanların rifahının yeganə və ya ən vacib məsələ olmadığı" qeyd olunur.

Qeyd edək ki, vaxtilə Avstraliyada kenqurların sayının həddən artıq artması və ölkədə yaşıllıqları məhv etməsi əsas gətirilərək onlara qarşı da bənzər qərar qəbul olunmuşdu.

Bu arada Avstraliyada vəhşi halda yaşayan digər heyvana – dəvələrə münasibət bir qədər dəyişib. Buna isə qlobal istiləşmə səbəb olub.

150 il əvvəl britaniyalı koloniyaçılar tərəfindən materikə nəqliyyat vasitəsi kimi gətirilən dəvələr burada çox sürətlə yayılıb. Əlverişli şərait, yırtıcıların olmaması bu canlıların tez bir zamanda çoxalması ilə nəticələnib. Hazırda Avstraliyada 1 milyon başdan çox dəvə var. Onların sayı növbəti on ildə ikiqat arta bilər. Bu isə yerli faunada tarazlığı poza bilər.

Hökumət vaxtaşırı olaraq vəhşi dəvələrin sayının tənzimlənməsini həyata keçirir. Lakin son vaxtlar "səhra gəmiləri"nə münasibət dəyişir. Bəzi iş adamları bu heyvanlardan gəlir əldə etmək istəyir. Artıq bir neçə sahibkar dəvələrlə turizm səfərləri təşkil edərək gəlir əldə edib. Bəzi sahibkarlar isə təbiətdə sərbəst gəzən heyvanları süd və ətindən istifadə etmək üçün xüsusi təsərrüfatlarda bəsləməyə başlayıb. Üstəlik, dəvələr qlobal isinməyə ideal şəkildə adaptasiya olurlar. Avstraliyalı fermerlər dəvələrin ət və südünü daha çox tələbat olan Yaxın Şərq regionuna satmağı düşünürlər.

# Tarixdə bu gün

## Olaylar, faktlar (28 – 30 avqust)

### Xronoqraf

### 498 il əvvəl...

**29 avqust 1526-cı ildə** Sultan II Süleymanın başçılıq etdiyi Osmanlı qoşunları Kral II Lüdoviqin rəhbərlik etdiyi macar ordusunu Mohaç kəndi (Macarıstanın cənubu) yaxınlığında döyüşdə məğlub edib. Bu döyüşdən sonra ovaxtkı Macarıstanın üçdə ikisi Osmanlının, qalanı isə Avstriyanın nəzarətinə keçdi.

### 303 il əvvəl...



**30 avqust 1721-ci ildə** Rusiya ilə İsveç arasında 20 ilə yaxın (fasilələrlə) sürmüş Şimal müharibəsinin yekunları barədə Niştadt sülhü imzalanıb. I Pyotrun apardığı müharibə nəticəsində Rusiya Baltik dənizinə (dünya okeanına) çıxış əldə edib, indiki Estoniya və Litva ərazilərini, həmçinin Finlandiyanın bir hissəsini özünə birləşdirib.

### 106 il əvvəl...

**28 avqust 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası xalq maarifinin, orta məktəblərin milliləşdirilməsi, ölkənin bütün məktəblərində türk (Azərbaycan) dilinin icbari qaydada tədrisi barədə qərar qəbul edib.



### 102 il əvvəl...

**30 avqust 1922-ci ildə** Mustafa Kamal paşanın komandanlığı altında Türk ordusu işğalçı yunan qoşunları ilə Dumlupınar döyüşündə (Kütahya vilayəti) tarixi qələbə



qazanıb. Bu qalibiyyət Qurtuluş savaşında həlledici rol oynayıb. 26 avqustda Afyonkarahisarda başlayan "Böyük Taarruz" ("Böyük Hücum") 9 sentyabrda İzmirin azad edilməsi ilə başa çatıb. 30 avqust Türkiyədə Zəfər Bayramı (Silahlı Qüvvələr Günü) kimi qeyd olunur.

### 94 il əvvəl...

**30 avqust 1930-cu ildə** Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin qərarı ilə respublika ərazisi yeni ərazi-inzibati vahidlərinə – rayonlara bölünüb. Azərbaycan SSR ərazisində 63 rayon yaradılıb. Bundan öncə (1920–1930-cu illərdə) respublikada ərazi-inzibati bölgüsü olaraq 10 dairə və onların tərkibində qəzalar mövcud idi.

### 33 il əvvəl...

**30 avqust 1991-ci ildə** Ali Sovetin növbədənkənar "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul olunub. Bəyannamədə Azərbaycan Respublikasının 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu vurğulanırdı. Parlament həmçinin Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının hazırlanması ilə bağlı qərar qəbul edib.

### 32 il əvvəl...

**28 avqust 1992-ci ildə** Ballıqaya qətliamı baş verib. Laçın rayonunun işğalından sonra Goranboy rayonunun Ballıqaya kəndi yaxınlığında çadırda məskunlaşan altı ailənin üzvləri – 24 nəfər gecə yatdıqları yerdə əraziyə basqın edən erməni silahlı dəstəsi tərəfindən qətlə yetirilib. Daha sonra çadırlara od vurulub, meyitlərin əksəriyyəti yandırılıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (mıxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1913
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641